**AZƏRBAYCAN RESPUBLİKASI**
**MÜDAFİƏ NAZİRLİYİ**

AZƏRBAYCAN RESPUBLİKASI
SİLAHLI QÜVVƏLƏRİNİN

# SIRA NİZAMNAMƏSİ

*Müdafiə nazirinin 24 dekabr 2014-cü il tarixli 73 №-li Qərarı ilə qüvvəyə minmişdir.*

**Bakı – 2015**

**Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Sıra Nizamnaməsi.**
– Bakı: Hərbi Nəşriyyat, 2015. – 128 səhifə.

**© Hərbi Nəşriyyat, 2015**

*Bu Nizamnamə hərbi qulluqçuların silahsız və silahla sıra hərəkətləri və yerişini, bölmə və hissələrin piyada və nəqliyyat vasitələrində sıralarını, əsgəri salamlaşma qaydalarını, sıra baxışının keçirilməsini, hərbi hissənin Döyüş Bayrağının sırada vəziyyətini, onun çıxarılmasını və qaytarılmasını, hərbi qulluqçuların düzülüşdən qabaq və sırada vəzifə borclarını, sıra hazırlığına olan tələbləri, habelə yerdəyişmə qaydalarını müəyyənləşdirir.*

*Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi hissələri, gəmiləri və bölmələri ilə bərabər bütün qərargah və idarələri, xüsusi təyinatlı təhsil müəssisələri bu Nizamnaməni rəhbər tutmalıdırlar.*

# 1-ci fəsil. ÜMUMİ MÜDDƏALAR

## Sıralar və onların idarə edilməsi

1. **Sıra,** hərbi qulluqçuların, bölmələrin və hissələrin piyada və maşınlarda birgə hərəkəti üçün Nizamnamə ilə müəyyən edilmiş düzülüşüdür.

2. **Cərgə,** hərbi qulluqçuların biri o birinin yanında bir xətt üzərində düzüldüyü sıradır. Maşınlar xətti, maşınların biri o birinin yanında bir düz xətt üzrə düzüldüyü sıradır.

3. **Cinah,** sıranın sağ (sol) kənarıdır. Sıra döndükdə cinahların adı dəyişmir.

4. **Ön,** sıranın hərbi qulluqçularının üzləri (maşınların qabağı) baxan tərəfdir.

5. **Sıranın arxa tərəfi,** sıra önünün əks tərəfidir.

6**. İnterval,** hərbi qulluqçular (maşınlar), bölmələr və hissələr arasında ön boyu məsafədir.

7. **Distansiya,** hərbi qulluqçular (maşınlar), bölmələr və hissələr arasında dərinliyə görə məsafədir.

8. **Sıranın eni,** cinahlar arasındakı məsafədir.

9. **Sıranın dərinliyi,** birinci cərgədən (qabaqda duran hərbi qulluqçudan) axırıncı cərgəyə (arxada duran hərbi qulluqçuya), maşınlarda hərəkət edərkən maşınların birinci xəttindən (qabaqdakı maşından) maşınların axırıncı xəttinə (arxadakı maşın) qədər olan məsafədir.

10. **İki cərgəli sıra,** bir cərgənin hərbi qulluqçularının o biri cərgənin hərbi qulluqçularının arxasında biraddımlıq (qabağa uzadılmış əlin barmaqlarının qarşıda duranın çiyninə çatana qədər məsafə) distansiyada düzülüşüdür. Cərgələr birinci və ikinci adlanır, sıra döndükdə cərgələrin adı dəyişmir.

11. **Səf,** iki cərgə sırada biri o birinin arxasında durmuş 2 hərbi qulluqçunun duruşudur. Birinci cərgədəki hərbi qulluqçunun arxasında ikinci cərgənin hərbi qulluqçusu olmadıqda səf natamam adlanır. Axırıncı səf həmişə tamamlanmalıdır.

12. İki cərgə sıra geriyə döndükdə natamam səfin hərbi qulluqçusu ön cərgəyə keçir.

13. Dörd nəfər və daha az hərbi qulluqçu bir cərgə düzülür.

14. **Bir cərgəli və iki cərgəli** sıralar sıxlaşmış və aralanmış ola bilər.

15. **Sıxlaşmış sıralarda** hərbi qulluqçular ön boyu bir-birinin yanında dirsəkləri arasında bir ovuc eni qədər intervalda düzülürlər.

16. **Aralanmış sıralarda** hərbi qulluqçular ön boyu bir-birindən 1 addımlıq, yaxud komandirin göstərdiyi intervalda düzülürlər.

17. **Kolon,** hərbi qulluqçuların, bölmələrin (maşınların) bir-birinin arxasında Nizamnamə, yaxud komandirin göstərişi ilə müəyyən edilmiş distansiyalarda düzüldükləri sıradır.

18. Kolonlar bir, iki, üç və daha çox ola bilər.

19. Dörd nəfər və daha az hərbi qulluqçu, ancaq bir kolona düzülür.

20. Kolon–bölmə və hissələri sərbəst, yaxud açıq sıraya düzmək üçün tətbiq edilir.

21. **Açıq sıra,** bölmələrin ön boyu bir xətt üzrə bir cərgə, ya da iki cərgə (maşınlar xəttində), kolonlar xətti sırasında, yaxud Nizamnamə, ya da komandirin təyin etdiyi intervalda düzülüşüdür.

22. Açıq sıra yoxlamalar, baxışlar, paradlar (mərasimlər) keçirmək üçün və başqa hallarda tətbiq edilir.

23. **Səfər sırası,** bölmə kolonda, yaxud bölmələr kolonlarda biri o birinin arxasında Nizamnamə, ya da komandirin müəyyən etdiyi distansiyalarda düzülüşdür.

24. **İstiqamətləndirici,** göstərilmiş istiqamətdə qabaqda gedən hərbi qulluqçudur (bölmədir, maşındır). Qalan hərbi qulluqçular (bölmələr, maşınlar) öz hərəkətlərini istiqamətləndirici ilə uyğunlaşdırmalıdırlar.

25. **Axırıncı,** kolonun axırında hərəkət edən hərbi qulluqçudur (bölmədir, maşındır).

26. **Sıranın** idarə edilməsi komandirlərin səsi, şəxsi nümayişi, habelə siqnal və texniki səyyar rabitə vasitələri ilə verilən komanda və sərəncamları ilə həyata keçirilir. Komanda komandirlərin ver-

diyi əmrin qısa ifadəsidir. Komandalar və sərəncamlar kolonda bölmə komandirləri, maşınların böyükləri və təyin edilmiş müşahidəçilər vasitəsi ilə də ötürülə bilər.

27. Maşında daxili idarəetmə səs, siqnal və daxili rabitə vasitələri ilə verilən komandalar və sərəncamlarla həyata keçirilir.

28. Sırada böyük komandir komanda vermək üçün münasib yerdə durur. Digər komandirlər Nizamnamə, yaxud böyük komandirin onlar üçün müəyyən etdiyi yerlərdən komanda verirlər.

29. Bölük və daha böyük komandirlərə, ancaq tabor və hərbi hissə səfər çıxışlarında olduğu zaman komanda vermək və yerinə yetirilməsini yoxlamaq üçün sıradan çıxmağa icazə verilir.

30. Komandalar xəbərdarlıq və icra komandalarından, yaxud yalnız icra komandasından ibarət ola bilər.

31. **Xəbərdarlıq komandası** komandirin sıradakılardan nə tələb etdiyini düzgün anlamaları üçün ucadan, aydın və uzadılaraq verilir.

32. Hər hansı xəbərdarlıq komandası veriləndə sırada və sıradan kənarda olan hərbi qulluqçular **"Farağat"** vəziyyəti alırlar; sırada hərəkət edənlər ayaqlarını yerə daha möhkəm basırlar.

33. **İcra** komandası (bu nizamnamədə iri şriftlə göstərilib) qısa fasilədən sonra ucadan, kəskin və aydın verilməlidir. İcra komandası dərhal və dəqiq yerinə yetirilir.

34. Bölmənin və ya hərbi qulluqçunun diqqətini cəlb etmək məqsədi ilə xəbərdarlıq komandasında, lazım gəldikdə, bölmənin adı, yaxud hərbi qulluqçunun rütbəsi və soyadı deyilir: məsələn, "**Taqım** (2-ci taqım) **– DUR**"; **"Əsgər Talıblı, geriyə – DÖN".**

35. Silahla hərəkətlər yerinə yetirilərkən, xəbərdarlıq komandasında silahın adı da göstərilə bilər, məsələn, **"Avtomatları, sinəyə – AL", "Pulemyotları, qayışa – AL".**

36. Komanda verərkən səsin tonu sıranın uzunluğuna uyğunlaşdırılmalıdır, raport aydın, səsin tonu kəskin qaldırılmadan verilir.

37. Sıranın və maşınların idarəetmə siqnalları "Görərək xəbərləşmə işarələri ilə idarəetmə təlimnaməsi"ndə (Əlavə 6 və 7) göstərilib.

38. Zəruri hallarda bölmə (hərbi hissə) komandiri sıranı idarə etmək üçün əlavə siqnallar təyin edə bilər.

39. Bütün bölmələrə aid olan komandalar (siqnallar) bütün bölmə komandirləri və maşınların komandirləri (böyükləri) tərəfindən qəbul edilir və dərhal yerinə yetirilir.

40. Siqnalla komanda verərkən əvvəlcə **"DİQQƏT"** siqnalı verilir. Komanda yalnız bir bölməyə aiddirsə, bölmənin nömrəsini göstərən siqnal verilir. Bölmələrin nömrələrini göstərmək üçün siqnalları bölmə (hərbi hissə) komandiri təyin edir.

41. Siqnalla veriləcək komandanı qəbul etməyə hazır olanlar hazır olduqlarını eyni “**DİQQƏT”** siqnalı ilə göstərirlər.

42. Siqnalın alınması onun təkrarı ilə, yaxud müvafiq siqnalı öz bölməsi üçün verməklə təsdiq edilir.

43. Hərəkətin yerinə yetirilməsini dayandırmaq və ya ləğv etmək üçün “**OLMADI**” komandası verilir. Bu komanda verildikdə hərəkətdən əvvəlki vəziyyət alınır.

44. Təlim məqsədilə Nizamnamədə göstərilən qaydaları (üsulları), dönmələri və hərəkəti yerinə yetirərkən onların hissələrlə (sayla) icrasına yol verilir; məsələn, **“Avtomatı, sinəyə – AL, bölgülərlə et – Bir, et – İki, et – Üç”, “Sağa dön, bölgülərlə et – Bir, et – İki”.**

45. Yığma komandaları təşkil edərkən onlar sıra hesabı ilə bölmələrə bölünür. Nizami hesab üçün hərbi qulluqçular iki cərgə sıraya düzülür və 218-ci maddəyə uyğun ümumi say aparılır. Komandanın sayından asılı olaraq onlar ardıcıl bölüklərə, taqımlara və manqalara bölünür və bu bölmələrə komandirlər təyin edilir.

46. Paradlarda (mərasimlərdə) iştirak etmək üçün, eləcə də başqa hallarda bölmələr komandirin əmri ilə üç, dörd və daha çox ümumi kolona düzülə bilər. Belə hallarda, mərasim iştirakçıları boy sırası ilə düzülürlər.

47. Silahlı Qüvvələrin qoşun növlərinin və xüsusi qoşunların hərbi hissələri və bölmələrinin düzülüşü, hərəkəti, istiqamətinin dəyişdirilməsi və başqa hərəkətləri bu Nizamnamədə göstərilən komanda və üsullarla yerinə yetirilir. Bu halda komandalarda “man-

qa”, “taqım”, “bölük”, “tabor” və “briqada” adlarının əvəzinə Silahlı Qüvvələrin qoşun növləri və qisimlərində, xüsusi qoşunlarda qəbul edilmiş bölmə və hissələrin adları göstərilir.

## Komandirlərin və əsgərlərin (matrosların) düzülüşqabağı və sırada vəzifələri

48. **Komandirin vəzifəsidir:**

48.1. düzülüşün yerini, vaxtını, qaydasını, geyim formasını və ləvazimatını, eləcə də silahın, döyüş və digər texniki vasitənin növünü təyin etmək;

48.2. sırada öz bölməsinin şəxsi heyətinin, onların silahlarının, döyüş və digər texnikanın, döyüş sursatının, mühafizə vasitələri, ləvazimat və qazma alətlərinin mövcudluğunu bilmək və yoxlamaq;

48.3. hərbi geyim formasının səliqəli olmasını, ləvazimatın uyğunlaşdırılmasını, eləcə də saçın qısa və səliqəli qırxılmasını yoxlamaq;

48.4. sırada nizam-intizamın saxlanmasına nəzarət etmək, bölmələr tərəfindən komanda və siqnalları, şəxsi heyətdən isə sırada vəzifə borclarını dəqiq yerinə yetirmələrini tələb etmək;

48.5. komanda verərkən **“Farağat”** vəziyyətini almaq;

48.6. bölmələr döyüş və digər texnika ilə düzüldükdə onlara baxış keçirmək;

48.7. şəxsi heyəti daşımaq üçün avadanlığın mövcudluğunu və onların sazlığını, yedəklənən (daşınan) əmlakın düzgün yığılıb bağlanmasını yoxlamaq;

48.8. hərəkət vaxtı təyin edilmiş məsafənin saxlanılmasına, sürət və hərəkət qaydalarına əməl edilməsinə nəzarət etmək.

49**. Əsgərin (matrosun) vəzifəsidir:**

49.1. öz silahının, ona təhkim edilmiş və tapşırılmış döyüş və digər texnikanın, döyüş sursatının, fərdi mühafizə vasitələrinin, qazma alətlərinin və ləvazimatın saz və işlək vəziyyətdə olduğunu, hərbi geyim formasını yoxlamaq;

49.2. hərbi formanın geyim qaydalarına riayət etmək, formanı və ləvazimatı öz bədəninə uyğunlaşdırmaq, yoldaşında gördüyü nöqsanları aradan qaldırmağa yardım etmək;

49.3. sırada öz yerini bilmək, onu tez və təlaşsız tutmağı bacarmaq; hərəkət zamanı təyin edilmiş interval və distansiyanı saxlamaq; sıradan (maşından) icazəsiz çıxmamaq (düşməmək);

49.4. sırada icazəsiz danışmamaq, tam sakitliyə riayət etmək; öz komandirlərinin əmrləri və komandalarına (siqnallarına) diqqətli olmaq, onları digər hərbi qulluqçulara mane olmadan düzgün və tez icra etmək;

49.5. müşahidəçi olarkən əmr, göstəriş və komandaları (siqnalları) təhrif etmədən dəqiq, yüksək səslə və aydın ötürmək.

50. Bütün hərbi qulluqçuların saçı qısa və səliqəli olmalıdır (qırxılmalıdır). Qadın hərbi qulluqçuların saçı çiyinləri örtməməli, uzun olduqda arxadan yığılmalı, baş geyimin daşınmasına mane olmamalıdır. Xidmət vaxtı makiyaj gözə çarpmamalı, zinət əşyalarından istifadə olunmamalıdır.

## 2-ci fəsil. SİLAHSIZ VƏ SİLAHLA SIRA ÜSULLARI VƏ HƏRƏKƏTLƏR

### 1. Silahsız sıra üsulları və hərəkətlər

#### Sıra duruşu

51. Sıra duruşu **"DÜZÜL"** komandası ilə alınır (şəkil 1). Bu komanda ilə hərbi qulluqçu cəld sıraya durmalıdır. Hərbi qulluqçu düz, dabanları birgə, ayaqqabıların burnunu ön xətt üzrə bir pəncə enində aralamalı, ayaqlarını dizlərdə gərginləşdirməməlidir. Gövdə dik tutulur, sinə bir qədər qabardılır, qarın boşluğu içəri çəkilir, çiyinlər bərabər yüksəklikdə tutulur və yuxarı qaldırılmadan bir az geriyə alınır. Qollar sərbəst vəziyyətdə aşağı salınır. Əllərin barmaqları bitişik vəziyyətdə və orta barmaq şalvarın yan tikişi üzərinə qoyulur, ovuclar tam ayaqlara yapışdırılır. Baş yuxarı və

düz saxlanılır, çənə qabağa verilmir, baxışlar irəli yönəlir. Hərbi qulluqçu hərəkətə hər an hazır vəziyyətini alır.



Şəkil 1. ***Sıra duruşu***

52. **"FARAĞAT"** komandası verildikdə dərhal sıra duruşuna keçilməli və tərpənilməməlidir.

53. Əmr verildikdə və alındıqda, raport verildikdə, hərbi qulluqçular bir-birinə müraciət etdikdə, Azərbaycan Respublikasının Dövlət Himni ifa edildikdə, əsgəri salam və komandalar verildikdə **"Farağat"** vəziyyəti komandasız alınır.

54. Azad vəziyyəti **"AZAD"** komandası ilə alınır (şəkil 2 ).

55.**"Azad"** komandası ilə, sol ayaq çiyin bərabərliyində aralıda qoyulur, qollar arxaya gətirilir, əllər bel kəmərinin səviyyəsində, sağ əlin bilək hissəsi sol əlin ovuc içinə gəlir və sol əlin barmaqları ilə yüngülcə sıxılır, sağ əlin barmaqları yarıbükülmüş, bədən düz vəziyyətdə sərbəst saxlanılır. Hərbi qulluqçu **"Farağat"** vəziyyətində durmalı, yerindən çıxmamalı, diqqəti yayındırmamalı və danışmamalı. Sıraya **"Azad"** komandası verildikdə və bundan sonra ko-

mandir (rəis) sıraya müraciət etdikdə, əlavə komandaya qədər sıra **“Azad”** vəziyyətində durmaqda davam edir.



Şəkil 2. ***“Azad” vəziyyəti***

56. **“Geyim formasını – DÜZƏLT”** komandası ilə sırada öz yerini tərk etmədən silahı, geyimi və ləvazimatı düzəltməli; sıradan çıxmaq üçün, bilavasitə rəisə müraciət edilməlidir. Yalnız böyük komandirin icazəsi ilə danışmaq və siqaret çəkmək olar.

57. “**Geyim formasını – DÜZƏLT**” komandasından əvvəl **“AZAD”** komandası verilir.

58. Baş geyimlərini çıxartmaq üçün **“Baş geyimini** (baş geyimlərini) – **ÇIXART”** komandası, baş geyimlərini geyinmək üçün **“Baş geyimini** (baş geyimlərini) – **GEYİN”** komandası verilir. Təklikdə hərbi qulluqçular ehtiyac olduqda baş geyimini komandasız çıxarır və geyinirlər.

59. Baş geyimi  sağ əllə çıxarılaraq sol  ələ ötürülür, sol əl azad buraxılmaqla baş geyiminin içəri tərəfi sol ayağa yapışdırılır  və baş geyiminin kokardası qabağa baxaraq  saxlanılır (şəkil 3).



**a** **b** **c**

Şəkil 3. ***Çıxardılmış baş geyimlərinin saxlama vəziyyəti:***
***a) furajka;  b) kamuflyaj rəngli səhra papağı; c) qulaqlı papaq***

60. Silahsız, yaxud silah "arxada" vəziyyətində olduqda baş geyimi sağ əllə, silah “sinədə”, “qayışda”  vəziyyətində və ayaq yanında olduqda sol əllə çıxarılır və geyinilir. Baş geyiminin karabin “çiyində”  vəziyyətində olduqda çıxarılması üçün karabin əvvəlcə ayağın yanına alınır.

## Yerində dönmələr

61. Yerində dönmələr **“Sağa – DÖN”, “Yarımsağa – DÖN”, “Sola – DÖN”, “Yarımsola – DÖN”, “Geriyə – DÖN”** komandaları ilə yerinə yetirilir.

62. Geriyə (1/2 dairə), sola (1/4 dairə), yarımsola (1/8 dairə) dönmə sol qola tərəf sol daban və sağ pəncə üstündə; sağa, yarımsağa, sağ qola tərəf, sağ daban və sol pəncə üstündə yerinə yetirilir.

63. Dönmələr iki saya yerinə yetirilir: birinci sayda sıra duruşunu saxlayaraq ayaqları dizdən bükmədən dönməli, bədənin ağırlığını qabaqdakı ayağın üstünə keçirməli, ikinci sayda o biri ayağı ən qısa yolla qabaqdakı ayağın yanına qoymalı.

## Hərəkət

64. **Hərəkətlər** addımla və ya qaçaraq yerinə yetirilir.

65. Addımla hərəkətin normal sürəti dəqiqədə 110–120 addım, addımın ölçüsü 70–80 sm olmalıdır.

66. Qaçaraq hərəkətin normal sürəti dəqiqədə 165–180 addım, addımın ölçüsü 85–90 sm olmalıdır.

67. **Addımlar iki cür olur: sıra və səfər addımları** (şəkil 4)**.**

68. **Sıra addımı,** bölmələr təntənəli marşla keçdikdə, sıradan çıxdıqda və sıraya qayıtdıqda, habelə sıra hazırlığı üzrə məşğələlərdə tətbiq edilir.

69. **Səfər addımı** bütün başqa hallarda tətbiq edilir.

70. Sıra addımı ilə hərəkət **"Sıra addımı ilə – MARŞ"**, səfər addımı ilə hərəkət isə **"Addımla – MARŞ"** komandası ilə başlanır.

71. Xəbərdarlıq komandası ilə bədəni bir qədər irəli verməli, onun sabitliyini saxlayaraq ağırlığın çoxunu sağ ayağın üzərinə keçirməli, icra komandasında sol ayaqla tam addımla hərəkətə başlanmalıdır. Əllərin barmaqları yarı bükülmüş vəziyyətdə, ovucun içi yerə baxaraq, qollar ilkin vəziyyətdən dirsəklər bükülmədən irəli, kəmər səviyyəsinə qədər və geriyə tam arxaya qədər açılır.

72. **Sıra addımı** ilə hərəkət edərkən pəncə yerə paralel, ayaqqabının burnu dartılmış vəziyyətə gətirilməli, ayaq yerdən 15–20 sm

qaldırılaraq yerə pəncə-daban üstündə möhkəm basılmalı və dərhal o biri ayaq yerdən aralanmalıdır.

73. Sıra addımları ilə hərəkətdə barmaqlar yarı bükülmüş vəziyyətdə, ovucun içi yerə baxaraq, qollar ilkin vəziyyətdən dirsəklər bükülmədən irəli çiyin səviyyəsinə  və geriyə tam arxaya qədər  açılır. (şəkil 4 a)

74. Səfər   addımları ilə hərəkət edərkən  ayyaqqabının burnunu dartmadan ayağı sərbəst qabağa çıxarmalı və yerə adi hərəkətdə olduğu kimi basmalı; qolları  irəlidə kəmər səviyyəsinə qədər qaldırmaqla sərbəst hərəkət etməli (şəkil 4 b).




**a** **b**

Şəkil 4. **a)** ***Sıra addımı;*** ***b) Səfər addımı***

75. Səfər addımları ilə hərəkət edərkən **"FARAĞAT"** komandası ilə sıra addımlarına keçilir. Sıra addımları ilə hərəkət edərkən **"AZAD"** komandası ilə səfər  addımlarına keçilir.

76. **"Geyim formasını – DÜZƏLT"** komandası ilə sıradakı sırada öz yerini tərk etmədən silah, geyim və ləvazimatı qaydaya

salır. Yalnız böyük komandirin icazəsi ilə sıradan çıxmaq və danışmaq olar.

77. Qaçaraq hərəkət "**Qaçaraq – MARŞ**" komandası ilə başlanır. Hərəkət durduğu yerdən başlandıqda xəbərdarlıq komandasında bədəni bir az irəli verməli, qollar yarımbükülü olmalı, dirsəkləri bir az arxaya aparmalı; icra komandasında hərəkəti sol ayaqla başlamalı, qollar irəliyə və geriyə sərbəst hərəkət etməlidir.

78. Addımla yerişdən qaçışa keçmək üçün xəbərdarlıq komandası ilə qollar yarımbükülü, dirsəkləri bir az arxaya aparmalı; icra komandası sol ayağın yerə basılması ilə eyni vaxtda verilir. Bu komanda ilə sağ ayaqla bir addım da atılaraq sol ayaqla hərəkətə başlanılır.

79. Qaçışdan addımla hərəkətə keçmək üçün **“Addımla – MARŞ”** komandası verilir. İcra komandası sağ ayağın yerə basılması ilə eyni vaxtda verilir. Bu komanda ilə iki addım da qaçaraq sol ayaqla hərəkətə keçilir.

80. Yerində addımlamanı (qaçışı) göstərmək üçün **“Yerində, addımla** (qaçaraq) **– MARŞ”** (hərəkətdə – **“YERİNDƏ”**) komandası verilir. Həmin komanda ilə ayaqları yerdən **15–20 sm** qaldırmalı və pəncələrin qabaq hissəsindən başlayaraq pəncə-daban üstə tamamilə (qaçarkən isə pəncənin qabaq hissəsini) yerə basmalı, qolları irəliyə və geriyə sərbəst hərəkət etdirməli (şəkil 5) sol ayağın yerə basılması ilə verilən **“DÜZÜNƏ”** komandası ilə sağ ayaqla yerində bir addım da atılaraq, sol ayaqla tam addımla hərəkətə (qaçmağa) başlanmalıdır.




Şəkil 5. ***Yerində addım***

81. Hərəkəti dayandırmaq üçün komanda verilir: məsələn, **“Əsgər – DUR”**. Bu komanda ilə sağ və ya sol ayaq yerə basılaraq bir addım daha atılır və ayaqlar birləşdirilərək **“Farağat”** vəziyyəti alınır.

82. Hərəkətin sürətini dəyişdirmək üçün **“İri addımla – MARŞ”, “Qısa addımla – MARŞ”, “Tez-tez addımla – MARŞ”, “Seyrək addımla – MARŞ”, “Yarımaddımla – MARŞ”** və **“Tam addımla – MARŞ”** komandaları verilir.

83. Hərbi qulluqçunun bir neçə addımlığa yan tərəfə yerini dəyişmək üçün komanda verilir: məsələn, **"Əsgər Əzimli, iki addım sağa** (sola), **addımla – MARŞ"**. Bu komanda ilə hərbi qulluqçu hər dəfə bir ayağını o birinin yanına qoymaqla yanakı sağa (sola) hərəkət edir.

84. İrəliyə (geriyə) bir neçə addım hərəkət etmək üçün komanda verilir: məsələn, **“İki addım irəli (geriyə), addımla – MARŞ”**. Bu

komanda ilə ayaqları bir-birinin yanına qoymayaraq iki addım irəliyə (geriyə, dönmədən) komandanı yerinə yetirir.

85. Sağa, sola və geriyə yerdəyişmələrdə qollarla hərəkət edilmir.

## Hərəkətdə dönmələr

86. Addımla hərəkətdə dönmələr **"Sağa – DÖN", "Yarımsağa – DÖN", "Sola – DÖN", "Yarımsola – DÖN", "Geriyə – MARŞ"** komandaları ilə yerinə yetirilir.

87. **Sağa** və yarımsağa dönmək üçün icra komandası sağ ayağın yerə basılması ilə eyni vaxtda verilir. Bu komanda ilə sol ayaqla bir addım ataraq sol ayağın pəncəsi üstündə dönməklə, eyni vaxtda sağ ayağı irəli ataraq yeni istiqamətdə hərəkət etməli.

88. **Sola** və yarımsola dönmək üçün icra komandası sol ayağın yerə basılması ilə eyni vaxtda verilir. Bu komanda ilə sağ ayaqla bir addım atılır, sağ ayağın pəncəsi üstündə dönməklə eyni vaxtda sol ayaq irəli atılır və yeni istiqamətdə hərəkət edilir.

89. **Geriyə** dönmək üçün icra komandası sağ ayağın yerə basılması ilə eyni vaxtda verilir. Bu komanda ilə sol ayaqla bir addım da atılır (birinci sayla), sağ ayağı yarım addım irəli və bir qədər sola qoymaqla (ikinci sayla) və hər iki pəncə üstündə, qolları ayaqların yanına sıxaraq, sol çiyin üstündə cəld dönülür, sol ayaqla hərəkət yeni istiqamətdə davam etdirilir (üçüncü sayla).

90. Dönmələr vaxtı qolların hərəkəti addımın taktına uyğun olmalıdır.

91. Qaçışda sağa (sola) dönmələr və yarımdönmələr, geriyə dönmə addımla hərəkətdə olduğu kimi yerinə yetirilir.

## 2. Silahla sıra üsulları və hərəkətlər. Silahla sıra duruşu

92. Silahla sıra duruşu silahsız sıra duruşu ilə eynidir. Silahla duruşda avtomatın "qayışda" vəziyyətində lüləsinin ağzı yuxarı, qatlanan qundaqlı avtomatın lüləsi aşağı vəziyyətdə saxlanılır, sol

əlin barmaqları bitişik vəziyyətdə və orta barmaq şalvarın tikişi üzərinə qoyulur, əlin ovucu tam ayağa yapışdırılır (şəkil 6 a, b).

93. Karabini (snayper tüfəngini) sağ ayağın yanında əllə saxlamalı. Qundağın alt hissəsi tam yerdə olmalı, pəncəyə toxunacaq vəziyyətdə və qundağın iti bucağı ayaqqabıların burun xəttində, sağ əli sərbəst aşağı salaraq karabinin (snayper tüfənginin) lülə və qaz borusundan tutmalı. (şəkil 6 c).

94. Əl və bölük pulemyotlarını ayağın yanında karabin kimi saxlamalı, sərbəst aşağı salınmış sağ əllə əl pulemyotunun lüləsindən, bölük pulemyotunun isə tutacağından tutmalı (şəkil 6 ç).

95. Əl qumbaraatanını "qayışda" vəziyyətində lüləsinin ağzını yuxarı saxlamalı (şəkil 6 d).



**a b c ç d**

Şəkil 6. ***Silahla sıra duruşu:***
***a) qundaqlı avtomatla; b) qatlanan qundaqlı avtomatla; c) karabin (snayper tüfəngi) ilə; ç) əl (bölük) pulemyotu ilə; d) əl qumbaraatanı ilə***

## Yerində silahla sıra üsullarının yerinə yetirilməsi

96. Avtomat "qayışda" vəziyyətindən sinəyə **"Avtomatı sinəyə – AL"** komandası ilə üç saya keçirilir.

96.1. Birinci say. Sağ əli tutduğu vəziyyətdən bir qədər yuxarı çəkməli, avtomatı çiyindən çıxarmalı; sol əllə lülə örtüyündən və lülə yatağının altından tutaraq onu sinədə şaquli, darağı sola, lüləsinin ağzını çənə səviyyəsində saxlamalı (şəkil 7 a).

96.2. İkinci say. Sağ əllə qayışı sağa çəkməli və onun altından tutmalı, əlin barmaqları yarımbükülü və özünə tərəf yönəlmiş olmalıdır. Eyni zamanda sağ dirsəyi qayışın altına keçirməli. Bu halda avtomatı diaqonal vəziyyətdə saxlamalı. (şəkil 7 b).

96.3. Üçüncü say. Qayışı qaldırıb başın üstündən arxaya keçirməli, sağ əllə avtomatın qundağı boyuncuğundan tutaraq sol əli tez aşağı salmalı (şəkil 7 c).

97. Qatlanan qundaqlı avtomat "qayışda" vəziyyətindən sinəyə eyni komanda ilə iki sayda keçirilir.

97.1. Birinci say. Sağ əlin dirsəyini qayışın altından çıxarmadan avtomatı sol əllə lülə örtüyündən və lülə yatağının altından tutaraq çiyindən çıxarmalı, onu qabaqda darağı aşağı, lüləsinin ağzını sola saxlamalı (şəkil 7 ç).



**a** **b** **c** **ç** **d**

Şəkil 7. ***Avtomatın "qayışa" vəziyyətindən "sinədə" vəziyyətinə keçirilməsi üsulları***

97.2. İkinci say. Sağ əllə qayışı başın üstündən sol çiyinə keçirməli və bu əllə avtomatı qayışın yanında lülə qutusundan tutaraq sol əli tez aşağı salmalı (şəkil 7 d).

98. Avtomat "sinədə" vəziyyətindən "qayışda" vəziyyətinə **"Qayışa –AL"** komandası ilə üç sayda keçirilir.

98.1. Birinci say. Sol əllə avtomatı lülə örtüyündən və lülə yatağının altından tutmalı, eyni zamanda avtomatı bir qədər irəli və yuxarıya çəkərək sağ qolu qayışın altından çıxarmalı, sağ əllə qundağın boyuncuğundan tutaraq avtomatı diaqonal vəziyyətdə saxlamalı (şəkil 8 a).



**a** **b** **c** **ç**

Şəkil 8. ***Avtomatın "sinədə" vəziyyətindən "qayışda" vəziyyətinə keçirilməsi üsulları***

98.2. İkinci say. Avtomatı yuxarı qaldıraraq qayışı başın üstündən qabağa keçirməli, sol əllə lülə örtüyündən və lülə yatağının altından tutaraq avtomatı öz qabağında şaquli, darağı sola, lüləsinin ağzını çənə səviyyəsində saxlamalı (şəkil 8 b).

98.3. Üçüncü say. Sağ əllə qayışın yuxarı hissəsindən tutaraq avtomatı sağ çiyində “qayışda” vəziyyətinə keçirməli, sol əli tez aşağı salmalı və silahla sıra duruşu vəziyyətini almalı (şəkil 6 a).

99. Qatlanan qundaqlı avtomat “sinədə” vəziyyətindən “qayışda” vəziyyətinə eyni komanda ilə üç sayda keçirilir.

99.1. Birinci say. Sol əllə avtomatı lülə və qaz borusunun üstündən tutmalı, avtomatı bir qədər yuxarı qaldırmalı, sağ əlin dirsəyini qayışın altından çıxarmalı, sağ əllə lülə qutusu yanında ovucla qayışı aşağıdan tutmalı (şəkil 8 c).

99.2. İkinci say. Avtomatın lülə qutusunu yuxarı çevirməli, qayışı başın üstündən qabağa keçirməli və avtomatın darağını sağa saxlamalı (şəkil 8 ç).

99.3. Üçüncü say. Avtomatı sağ çiyində “qayışda” vəziyyətinə keçirməli, sol əli tez aşağı salmalı və silahla sıra duruşu vəziyyətini almalı (şəkil 6 b)

100. Avtomatı “çarpaz tutma” vəziyətinə keçirməzdən əvvəl “**Qayışı – UZAT (YIĞ, TƏNZİMLƏ)”** komandası verilir. Bu komanda ilə, 110 və 111-ci maddələrdə göstərildiyi kimi qayışı nişangaha ilişdirdikdən sonra sağ əllə avtomatın lülə örtüyündən tutaraq şaquli vəziyyətdə saxlamaq lazımdır.

101. Avtomatı “çarpaz tutma” vəziyyətinə keçirmək üçün “**Çarpaz – TUT**” komandası verilir və üsul iki saya yerinə yetirilir.

101.1. Birinci say. Avtomatı qaldıraraq bədənin önündə bir ovuc eni aralıda çarpaz–lülə sola yuxarı, qundaq sağa aşağı 45 dərəcə bucaq altında, sağ qolu çiyin səviyyəsində yerə paralel vəziyyətə gətirərək, sağ əllə avtomatın qaz borusu və lülə örtüyünün üstündən, sol qolun dirsəyi bədənə yapışıq vəziyyətdə sol əllə sağ əlin aşağısından avtomatdan tutmalı (şəkil 9 a).

101.2. İkinci say. Sol əlin vəziyyəti dəyişdirilmədən, sağ əllə avtomatın qundaq yatağından tutaraq saxlamalı (şəkil 9 b).



a b

Şəkil 9. ***Avtomatın çarpaz tutulması***

102. Avtomatı “çarpaz tutma” vəziyyətindən “qayışda” vəziyyətinə keçirmək üçün **“Qayışa –AL”** komandası verilir. Bu komanda ilə əvvəl iki sayla avtomat yana götürülür və sərbəst 110 və 111-ci maddələrdə göstərildiyi kimi qayışı yığaraq "qayışda" vəziyyətinə keçirilir.

102.1. Birinci say. Sağ qolu çiyin səviyyəsində yerə paralel vəziyyətə gətirərək, sağ əllə avtomatın qaz borusu və lülə örtüyünün üstündən, sol əllə sağ əlin aşağısından avtomatdan tutmalı (şəkil 9 a).

102.2. İkinci say. Sağ əllə avtomatı sağ ayağın yanına götürməklə şaquli saxlamalı, sol əli sərt hərəkətlə yana endirməli.

103. Karabin (əl pulemyotu) ayaq yanından “qayışda” vəziyyətinə “**Qayışa –AL”** komandası ilə üç sayda götürülür.

103.1. Birinci say. Sağ əllə karabini (əl pulemyotunu) gövdədən uzaqlaşdırmadan qaldıraraq darağı (əl pulemyotunun tapança

dəstəyini) sola çevirməli, sol əllə karabinin darağından (əl pulemyotunun lülə örtüyündən və lülə yatağının altından) tutaraq karabini (əl pulemyotunu) önündə şaquli, lüləsinin ağzı gözlər səviyyəsində; sağ qolun dirsəyini gövdəyə yapışıq vəziyyətdə saxlamalı (şəkil 10 a, b).

103.2. İkinci say. Sağ əllə qayışdan tutaraq onu sola dartmalı (şəkil 10 c).

103.3. Üçüncü say. Karabini (əl pulemyotunu) tez çiyinə atmalı; sol əli cəld hərəkətlə yana endirməli; sağ əli qayış üzərində, qolun dirsəkdən ələ qədər olan hissəsini yerə paralel vəziyyətə gətirməli, aşağı salmalı; karabini (əl pulemyotunu) dirsəklə azacıq gövdəyə sıxmalı (şəkil 10 ç, d).



**a** **b** **c** **ç** **d**

Şəkil 10. ***Karabin və əl pulemyotu ilə* “Qayışa – AL” *üsullarının yerinə yetirilməsi***

104. Karabin “qayışda” vəziyyətindən ayağın yanına **“Ayağa – AL”** komandası ilə üç sayla, əl pulemyotu iki sayla götürülür.

105. Üsulun karabinlə yerinə yetirilməsi.

105.1. Birinci say. Sağ əllə qayışın köməyi ilə qundağı qabağa verməli; sol əllə karabininin darağından tutaraq, onu bir az qaldırmalı (şəkil 11).



Şəkil 11. ***Karabinin "Qayışda" vəziyyətindən ayağın yanına götürülməsi***

105.2. İkinci say. Sol əllə karabini çiyindən çıxarmalı, sağ əllə lülə yatağının yuxarı hissəsi və lülə örtüyündən yapışaraq darağı sola tutmalı (şəkil 10 a).

105.3. Üçüncü say. Sol qolu cəld hərəkətlə aşağı endirməli, sağ əllə karabini ayağın yanında ehmalca yerə qoymalı (şəkil 6 c).

106. Üsulun əl pulemyotu ilə yerinə yetirilməsi.

106.1. Birinci say. Sağ əli bir qədər yuxarı çəkməli, pulemyotu çiyindən çıxarmalı, sol əllə lülə yatağından tutmalı, sağ əllə pulemyotun qaz borusundan yuxarı lülədən tutaraq, önündə tapança

dəstəyi sola, lülənin ağız kəsiyini gözlər səviyyəsində saxlamalı (şəkil 10 b).

106.2. İkinci say. Sol əli cəld hərəkətlə aşağı endirməli, sağ əllə pulemyotu ayağın yanında ehmalca yerə qoymalı.

107. Bölük pulemyotunu qayışda və ayağın yanında vəziyyətlərinə rahat olan üsulla götürürlər.

108. Karabin ayağın yanından "çiyində" vəziyyətinə **"ÇİYİNƏ –AL"** komandası ilə, ancaq taxılmış süngü ilə iki sayla götürülür.

108.1. Birinci say. Sağ əllə karibini qaldıraraq darağı sola şaquli vəziyyətdə gövdəyə yaxın apararaq sol tərəfə keçirməli; eyni zamanda sağ əllə lülə örtüyünün yuxarı hissəsindən tutmaqla sol qolu açıq vəziyyətdə bir qədər irəli verməli, karabinin qundağını sol əlin ovucu – baş barmaqla qundağın qabağından, digər barmaqlarla isə qundağın sol tərəfindən tutmalı; karabini sol əldə çiyinin qabağında qundağın iti tərəfi sol ayağa toxunacaq, şaquli vəziyyətdə saxlamalı; sağ dirsək çiyin səviyyəsində yerə paralel vəziyyətdə olmalıdır (şəkil 12 a).



**a** **b** **c**

Şəkil 12. ***Karabinin ayaq yanından "Çiyinə" götürülməsi***

108.2. İkinci say. Sağ əli cəld hərəkətlə yana endirməli, eyni zamanda sol əllə karabinin tətik dəstəyini çiyin çuxuruna qoymalı və yana yıxılmayacaq vəziyyətdə saxlamalı; sol əli dirsəkdən bir az aşağı saxlamalı, qundağı və sol dirsəyi gövdəyə sıxmalı (şəkil 12 b, c).

109. Karabin "çiyində" vəziyyətindən ayağın yanına **"Ayağa – AL"** komandası ilə üç saya götürülür.

109.1. Birinci say. Sol əli bir qədər aşağı salmalı, eyni zamanda sağ əllə karabinin lülə örtüyünün yuxarı hissəsindən tutub onu şəkil 12 a-da göstərilən vəziyyətə gətirməli.

109.2. İkinci say. Karabini sağ əllə aşağı – sağ ayağa tərəf keçirərək onu özünə tərəf qundağın iti bucağını qabağa döndərməli; pəncəyə toxunacaq vəziyyətdə, yerə qoymadan sağ ayağın yanında saxlamalı.

109.3. Üçüncü say. Sol əli sərt hərəkətlə yana endirməli, sağ əllə karabini ehmalca yerə qoymalı (şəkil 6 c).

110. Qayışı uzatmağa (yığmağa, tənzimləməyə) ehtiyac olduqda **"Qayışı – UZAT (YIĞ, TƏNZİMLƏ)"** komandası verilir.

111. Xəbərdarlıq komandasında avtomatları və əl qumbaraatanlarını sağ ələ, karabin və pulemyotları ayağın yanına götürməli; bükülən qundaqlı avtomatlarda qundağı açmalı. İcra komandasında yarımsağa dönməli və eyni zamanda sol ayağı bir addım sola qoymalı, qabağa əyilərək silahın qundağını sol ayağın altına söykəməli, lüləsini sağ dirsəyin bükümünə qoymalı, ayaqları dizdən əyməməli, sağ əllə qayışın toqqasını saxlayaraq sol əllə qayışı uzatmalı (yığmalı) və sərbəst sıra duruşunu almalı.

112. **"Çiyinə – AL", "Qayışa – AL"** və **"Sinəyə – AL"** komandalarından əvvəl **"Qoruyucuya – QOY"** komandası ilə silah qoruyucuya qoyulmalıdır.

113. Süngü-bıçağı (süngünü) çıxarmaq və ya taxmaq üçün **"Süngünü-bıçağı – TAX"** və **"Süngünü-bıçağı – ÇIXART"** komandaları verilir. Bu komandalar sərbəst, saysız yerinə yetirilir.

114. Silah "qayışda" vəziyyətindən "arxada" vəziyətinə **"Silahı arxaya –AL"** komandası ilə iki sayda keçirilir.

114.1. Birinci say. Sol əllə sağ çiyindən bir az aşağı qayışdan, sağ əllə eyni zamanda qundaqdan (qundağı bükülən avtomat və əl qumbaraatanının qayışının silaha birləşdiyi hissədən) tutmalı.

114.2. İkinci say. Sağ əllə silahı yuxarı qaldırmalı, sol əllə qayışı başın üstündən sol çiyinə atmalı və silahı buraxaraq əlləri cəld yanlara endirməli (şəkil 13).

115. Avtomat "arxada" vəziyyətinə, ancaq süngü-bıçaqsız, karabin isə qatlanmış süngü ilə götürülür.

116. Silah "arxada" vəziyyətindən "qayışda" vəziyyətinə **"Silahı qayışa-AL"** komandası ilə iki sayla keçirilir.



Şəkil 13. ***Silahın "Arxada" vəziyyəti***

116.1. Birinci say. Sol əllə sol çiyindən bir az aşağı qayışdan, sağ əllə eyni zamanda qundaqdan (lülədən, genağızdan) tutmalı.

116.2. İkinci say. Sağ əllə silahı qaldırmalı, sol əllə qayışı başın üstündən sağ çiyinə atmalı, qayışı sağ əllə şəkil 6 a, b, d və 10 ç, d-də göstərilən kimi tutmalı, sol əli cəld hərəkətlə yana endirməli.

117. Avtomatı **"sinəyə"** vəziyyətindən "**arxada"** vəziyyətinə və "**arxada"** vəziyyətindən **"sinəyə"** vəziyyətinə, habelə karabini

**“arxada”** vəziyyətindən ayaq yanında vəziyyətinə keçirmək üçün silah əvvəlcədən komanda ilə “**qayışda”** vəziyyətinə götürülür.

118. Bükülən qundaqlı avtomatı **“sinədə”** vəziyyətindən “**arxada”** vəziyyətinə keçirmək üçün sağ əllə avtomatın lüləsinin ucundan tutmalı, onu **“arxada”** vəziyyətinə çevirməli.

119. **“Arxada”** vəziyyətindən **“Sinəyə – AL”** üsulunu yerinə yetirərkən sağ əllə avtomatın lüləsinin ucundan tutaraq sol çiyinə tərəf dartmalı və avtomatı **“sinəyə”** vəziyyətinə keçirməli.

120. Əl pulemyotu **“arxada”** vəziyyətinə rahat olan üsulla götürülür.

121. **“Ayağa – AL”** ümumi komanda ilə karabinlər və pulemyotlar ayağın yanına alınır, avtomatlar və əl qumbaraatanlarının vəziyyəti dəyişdirilmir.

122. Silahı düzgün vəziyyətə gətirmək üçün **“Qundağı içəriyə** (bayıra) – **ÇEVİR”**, “**Süngü – YUXARI** (AŞAĞI)”, “**Qundaq – YUXARI** (AŞAĞI)”, **“Silahı – DÜZƏLT”** komandaları verilir.

## Silahla dönmələr və hərəkət

123. Silahla dönmələr və hərəkətdə silahsız dönmələr hərəkət üçün verilən komandalar və qaydalarla yerinə yetirilir.

124. Yerində ayağın yanında olan silahla dönmələrdə xəbərdarlıq komandası ilə silahı bir qədər qaldırmalı, eyni zamanda silahın süngüsünü (lülə ağzı hissəsini) özünə tərəf, sağ əli sağ ayağa sıxmalı, ayağı o biri ayağın yanına qoyaraq silahı ehmalca yerə toxundurmalı.

125. Ayaq yanında olan silahla hərəkət üçün “**Addımla**” xəbərdarlıq komandası ilə silahı bir qədər qaldırmalı, “**Qaçaraq”** komandası ilə isə əlavə olaraq, sol qolu dirsəkdən yarı bükməli.

126. Qaçarkən silah azca bükülmüş sağ əldə götürülməli, lülənin ağız tərəfi bir qədər irəli verilməlidir. Sıx sırada qaçarkən süngünü özünə tərəf çəkməli.

127. Silahla ayaq yanında, “çiyində”, “qayışda” və “sinədə” vəziyyətlərində hərəkət etdikdə silahı tutmayan qolun, silah “arxa-

da” vəziyyətində hərəkət etdikdə isə hər iki qolun hərəkəti ayaq hərəkətinin taktına uyğun olmalıdır.

128. Karabinlə “çiyində” vəziyyətində hərəkət etdikdə, “**DUR”** icra komandası ilə dayanmalı, komandasız karabini 109-cu maddədə göstərilən qayda ilə ayağın yanına götürməli. Karabinlə başqa vəziyyətlərdə hərəkət etdikdə karabin, dayanandan sonra ayağın yanına ancaq komanda ilə götürülür.

## 3-cü fəsil. ƏSGƏRİ SALAMLAŞMA, SIRADAN ÇIXMA VƏ RƏİSƏ YAXINLAŞMA

### Silahsız yerində və hərəkətdə əsgəri salamlaşma

129. Əsgəri salam dəqiq və cəld, sıra duruşu və hərəkəti qaydalarını düzgün yerinə yetirməklə verilir.

130. Əsgəri salam verilərkən sağ əlin orta barmağının ucunu sağ qaşın sağ ucuna yaxınlaşdırmalı, barmaqlar bir yerdə, ovuc düz, dirsək çiyin səviyyəsində olmalıdır. Başı rəisə tərəf döndərdikdə əlin vəziyyəti dəyişmir.

131. Sıradan kənarda yerində vəziyyətində başıaçıq və ya baş geyimində əsgəri salamlaşma üçün rəis yaxınlaşdıqda 5-6 addım qalmış rəisə tərəf dönməli, **“farağat”** durmalı, rəisə baxaraq sağ əlin orta barmağının ucunu sağ qaşın sağ ucuna yaxınlaşdırmalı və rəis əsgəri salam verəni ötüb keçəndən sonra əli aşağı salmalı (şəkil 14).

132. Rəis xidməti maşında olduqda (maşının üzərində xüsusi şərti işarə göründükdə) əsgəri salamlaşma üçün maşın yaxınlaşdıqda 5-6 addım qalmış maşına tərəf dönməli, “**farağat”** vəziyyətini almalı, əsgəri salam verməli və rəis əsgəri salam verəni ötüb keçəndən sonra əli aşağı salmalı. Maşında olan rəis nəzakət rəmzi olaraq hərbi qulluqçuya əsgəri salam verir.



Şəkil 14. ***Yerində əsgəri  salamlaşma***



Şəkil 15. ***Hərəkətdə əsgəri salamlaşma***

133. Sıradan kənarda hərəkətdə başıaçıq və ya baş geyimində olduqda hərəkət edən və ya dayanmış rəisə yaxınlaşdıqda səfər addımları ilə hərəkəti davam edərək rəisə 5-6 addım qalmış başı rəisə tərəf döndərməli və eyni zamanda sağ əlin orta barmağının

ucunu sağ qaşın sağ ucuna yaxınlaşdırmalı, sol əli budun yanında hərəkətsiz saxlamalı (şəkil 15). Rəisi ötəndən sonra başını önə çevirməli və sağ əli aşağı salmalı.

134. Rəis xidməti maşında olduqda (maşının üzərində xüsusi şərti işarə göründükdə), əsgəri salamlaşma 132-ci maddədə göstərildiyi kimi yerinə yetirilir.

135. Qərargahlarda və xidməti binalarda rəislə qarşılaşdıqda əsgəri salamlaşma ümumi qaydada yerinə yetirilir.

136. Hərbi qulluqçunun əllərində yük (əşya) olduqda, əsgəri salamlaşma üçün rəis yaxınlaşdıqda ona tərəf dönməli, "**Farağat**" vəziyyətini almalı, rəisə baxaraq başını rəisin hərəkət istiqamətinə çevirməli.

## Silahla yerində və hərəkətdə əsgəri salamlaşma

137. Silahla sıradankənar, yerində vəziyyətində əsgəri salam silahsız yerində vəziyyətindəki kimi verilir; bu halda karabinin "çiyində" vəziyyəti istisna olmaqla, silahın vəziyyəti dəyişilmir. Karabin "çiyində" vəziyyətində olduqda, əsgəri salamlaşma üçün karabin əvvəlcədən ayağın yanına götürülür.

138. Silah "arxada" vəziyyətində olduqda, əsgəri salam silahsız salamlaşma qaydası ilə yerinə yetirilir.

139. Sıradan kənarda hərəkətdə silah ayaq yanında, "qayışda" və "sinədə" vəziyyətindədirsə, əsgəri salamlaşma üçün rəisə yaxınlaşdıqda ayağı yerə qoymaqla, eyni vaxtda başı rəisə tərəf döndərib sərbəst qolla hərəkəti dayandırmalı, silah "arxada" vəziyyətində olduqda, onlardan başqa, əsgəri salam verməli.

140. Karabin "çiyində" vəziyyətində olarkən əsgəri salam verdikdə sağ qolla bədən ətrafında hərəkəti davam etdirməli.

141. **"Sağdan** (soldan, öndən) **qarşılamaq üçün qarovula – AL"** komandası ilə əsgəri salamlaşma üçün karabin ayaq yanında vəziyyətindən "qarovulda" vəziyyətinə iki sayla götürülür.

141.1. Birinci say. Sağ əllə karabini qaldırıb, onu lüləsi sinənin önündə, nişangah plankasını özünə tərəf şaquli saxlamalı, eyni

vaxtda sol əllə karabinin lülə yatağından tutmalı (dörd barmaq irəlidə darağın üstündə, baş barmaq nişangah plankasının altında), sol əl kəmər səviyyəsində olmalıdır (şəkil 16 a).

141.2. İkinci say. Sağ əli qundağın boyuncuğuna keçirib, karabini elə saxlamalı ki, baş barmaq geridə, qalan barmaqlar birlikdə çəpinə qundaq boyuncuğunun üstündə irəlidə olsun (şəkil 18 b). İkinci üsulu yerinə yetirməklə eyni vaxtda başı sağa (sola) döndərərək rəisi baxışla müşayiət etməli.



a b

Şəkil 16. ***Karabinlə "Qarovula – Al" üsulu ilə əsgəri salamlaşma***

142. "Qarovulda" vəziyyətindən karabin ayağın yanına **"Ayağa –AL"** komandası ilə götürülür. Xəbərdarlıq komandası ilə başı düz vəziyyətə gətirməli, icra komandasında isə karabini ayağın yanına üç sayla götürməli.

142.1. Birinci say. Sağ əli yuxarı keçirib onunla karabini lülə yatağı və lülə örtüyünün yuxarı hissəsindən tutmalı.

142.2. İkinci say. Karabini sağ ayağın yanına elə keçirməli ki, o, qundağın içəri hissəsi ilə sağ ayağın çeçələ barmağına toxunsun; sol əllə karabini süngü borucuğundan tutub saxlamalı.

142.3. Üçüncü say. Sol əli cəld aşağı salıb sağ əllə karabini yavaşca yerə qoymalı.

143. Karabinlə "qarovulda" üsulunun icrası ilə salamlaşma, ancaq bölmələrin və hissələrin sırada durduqları vaxt yerinə yetirilir.

144. "**Sağdan** (soldan, öndən) **qarşılamaq üçün, qarovula – AL"** komandası ilə karabinlər qarovula alınır; sırada olan bütün hərbi qulluqçular **"farağat"** vəziyyəti alır və eyni vaxtda başlarını rəisə tərəf çevirərək onu baxışları ilə müşayiət edirlər. Sıradakı hərbi qulluqçularda avtomat, pulemyot və əl qumbaraatanları olduqda onların vəziyyətləri dəyişdirilmir.

## Sıradan çıxma və rəisə yaxınlaşma

145. Hərbi qulluqçunun sıradan çıxması üçün komanda verilir, məsələn: **"Əsgər Məmmədli. Sıradan 1-2-3 addım çıx".**, yaxud **"Əsgər Məmmədli. Yanıma** (qaçaraq yanıma)**"**. Hərbi qulluqçu öz soyadını eşitdikdə **"Mən"**, sıradan çıxmaq haqqında komandaya (çağırışa) isə **"Oldu"** cavabını verir.

146. Birinci komanda ilə hərbi qulluqçu sıra addımları ilə birinci cərgədən sayaraq göstərilən addım qədər sıradan çıxır, dayanır və üzü sıraya tərəf dönür. İkinci komandada hərbi qulluqçu birinci cərgədən iki addım düzünə addımlayır və hərəkəti davam etdirərək rəisə tərəf dönür, qısaldılmış yolla səfər addımları ilə (rəislə hərbi qulluqçu arasında məsafə 15 addımdan çox olduqda – qaçaraq) rəisə 5-6 addım qalmış sıra addımlarına keçir, rəisin (əllər kəmər səviyyəsinə qədər və geriyə tam arxaya qədər açılır) 2-3 addımlığında dayanır və məruzə edir.

147. Hərbi qulluqçu ikinci cərgədən çıxdıqda, o, sol əlini ön cərgədə duran hərbi qulluqçunun çiyninə qoyur, ön cərgədə duran bir addım irəli ataraq sağ ayağı ilə bir addım sağa çıxır, sıradan çıxan hərbi qulluqçunu buraxır və sonra öz yerini tutur.

148. Hərbi qulluqçu qarşıdakı cərgədən çıxdıqda onun yerini arxasında duran hərbi qulluqçu tutur.

149. Hərbi qulluqçu iki (üç) kolondan çıxmaq üçün əvvəlcədən yaxın cinaha tərəf (sağa, ya sola) dönərək sıradan çıxır. Sıradan çıxanın yanında hərbi qulluqçu olduqda, o, sol (sağ) ayağı ilə yana bir addım atır, sağ (sol) ayağı ilə geriyə bir addım ataraq ayaqlarını birləşdirmədən sıradan çıxan hərbi qulluqçunu buraxır və sonra öz yerini tutur.

150. Hərbi qulluqçunun sıraya qayıtması üçün komanda verilir, məsələn: **"Əsgər Məmmədli. Sıraya dur".**, yaxud ancaq **"Sıraya dur"** komandası ilə üzü sıraya dayanmış hərbi qulluqçu öz soyadını eşitdikdə rəisə tərəf dönərək, **"Mən"** cavabını verir. Hərbi qulluqçu silahsız olduqda, yaxud silahı "arxada" vəziyyətindədirsə, **"Sıraya dur"** komandası ilə o, əsgəri salam verməklə **"Oldu"** cavabı verir, geriyə dönür, birinci addımla əlini aşağı salır və səfər addımları ilə (qaçaraq) ən qısa yolla sırada öz yerini tutur.

151. Sıraya qayıtdıqda rəisdən uzaqlaşarkən hərbi qulluqçu 150-ci maddədə göstərildiyi kimi sıradakı yerinə qədər qısaldılmış yolla səfər addımları ilə hərəkət edir.

152. Əgərin soyadı deyilmədən **"Sıraya dur"** komandası verilərsə, üzü sıraya duran hərbi qulluqçu **"Mən"** demədən və rəisə tərəf dönmədən sıraya qayıdır.

153. Sıradan çıxarkən "çiyində" vəziyyətində olan karabin hərəkətə başlamazdan əvvəl ayaq yanına götürülür, başqa silahların vəziyyəti dəyişdirilmir.

154. Sıraya qayıtdıqdan sonra silah sırada duran hərbi qulluqçuların silahlarının olduğu vəziyyətə götürülür.

155. Hərbi qulluqçu sıradan kənarda çağırış ilə rəisə yaxınlaşarkən iki-üç addım qalmış dayanır, ayağını saxlamaqla eyni vaxtda sağ əlin orta barmağının ucunu sağ qaşın sağ ucuna yaxınlaşdırır və məruzə edir, məsələn: **"Cənab leytenant, əsgər Əlibəyli sizin əmrinizlə gəldi"**, yaxud "**Cənab general-mayor, mayor Səfərli sizin əmrinizlə gəldi"**. Məruzə başa çatdıqda əlini aşağı salır.

156. Hərbi qulluqçuya rəis icazə verdikdə o, sağ əlin orta barmağının ucunu sağ qaşın sağ ucuna yaxınlaşdıraraq **“Oldu”** cavabı verir, hərəkət istiqamətinə dönür, birinci addımla (sol ayağını yerə qoymaqla) əlini aşağı salır və hərəkəti səfər addımları ilə (qaçaraq) davam edir.

157. Rəisə silahla yanaşdıqda (silah arxada vəziyyətindən başqa) əsgəri salam verilmir.

158. Karabinin “çiyində” vəziyyətindən başqa, bütün hallarda rəisə yaxınlaşarkən silahın vəziyyəti dəyişmir. Karabin “çiyində” olduqda, o rəisin qarşısında dayandıqdan sonra ayaq yanına götürülür. Rəisdən uzaqlaşarkən silahı ayaq yanında vəziyyətindən başqa vəziyyətə götürdükdə, hərbi qulluqçu bu hərəkəti **“Oldu”** dedikdən sonra yerinə yetirir.

## 4-cü fəsil. “ÇÖK”, “UZAN” (“DÖYÜŞƏ”), “QALX” ÜSULLARI, SIÇRAMALAR VƏ SÜRÜNMƏLƏR

159. Silahla çökmək üçün **“ÇÖK”** komandası verilir. Bu komanda ilə silahı sağ ələ götürüb **“azad”** vəziyyəti almalı və sonra sol ayağı bir addım irəli atmalı, silahı sol ayağın topuğu bərabərinə dik vəziyyətə gətirməli, sağ diz üzərində çökməli, sağ əllə silahın lüləsini sağ çiyin boşluğuna qoyub qolu bədənə yapışdırmalı, sol əli sol dizin üstünə qoymalı (şəkil 17).



Şəkil 17. ***Silahla çökmə***

160. **“Çökmə”** vəziyyətindən qalxmaq üçün **“QALX”** komandası verilir. Bu komanda ilə sol əllə sol dizə dayanaraq qundağı yerdən qaldırmalı, sol ayaq üstündə irəli qalxıb sağ ayağı sol ayağın yanına gətirməli, silahı qayışa alıb **“Azad”** vəziyyətə keçməli**.** **“Çök”** komandası məşğələlər, təlimlər və istirahət vaxtlarında hərbi qulluqçular silahsız olduqda da verilə bilər. Bu hallarda sağ əl sağ dizin üstünə qoyulur.

161. Hərəkət vaxtı **“ÇÖK”** komandası sağ ayaq yerə qoyularkən verilir.

162. **“UZAN”,** yaxud **“DÖYÜŞƏ”** komandaları ilə silahı sağ ələ götürüb sağ ayaqla irəli, bir az sağa tam addım atmalı, eyni zamanda bədəni qabağa əyərək sol dizi üstə enib, sol əli özünün qabağında barmaqları sağa yerə qoymalı (şəkil 18 a). Sonra ardıcıl surətdə sol ombasına, sol bazu önünə dayanaraq, sol böyrü üstünə uzanmalı və tez qarnı üstünə çevrilməli, ayaq pəncələrini bayıra çevirməklə bir az aralı uzatmalı (şəkil 18 b). **“Döyüşə”** komandası ilə, bunlardan başqa, atəş aparmağa hazırlaşmalı (şəkil 18 c).



a

b

c

Şəkil 18. ***“Döyüşə” üsulunun yerinə yetirilməsi***

163. **“QALX”** komandası ilə sağ əldə silahı saxlamalı, hər iki əli sinəyə qədər çəkib, eyni zamanda ayaqları birləşdirməli (şəkil 19 a), sonra qolları düzəldərək sinəni yerdən qaldırmalı və sağ (sol) ayağı qabağa verib (şəkil 19 b) cəld qalxmalı, sol (sağ) ayağı o birinə yaxınlaşdırıb, silahla sıra duruşu qəbul etməli (şəkil 6).



**a**



**b**

Şəkil 19. ***Uzanma vəziyyətindən “Qalx” üsulunun yerinə yetirilməsi***

164. Döyüş meydanında yerdəyişmə sürətli addımlarla, yaxud qaçaraq (bütün boyla, ya yarım əyilərək), sıçramalarla və sürünmələrlə yerinə yetirilə bilər.

165. Sıçrama **“Əsgər İbrahimli, səngərə, sıçrayaraq – İRƏLİ”** komandası ilə yerinə yetirilir.

166. Xəbərdarlıq komandası ilə irəliləmə yolunu, arada dincəlmək üçün örtülü yerləri nəzərdə tutmalı; icra komandasında tez 163-cü maddədə göstərildiyi kimi qalxıb sol (sağ) ayağı o birinin yanına qoymadan qabağa çıxarmalı, eyni zamanda sağ (sol) ayağı düzəltməklə (onunla özünü itələməklə) sıçrayaraq keçməli.

167. Ərazidən və düşmənin atəşindən asılı olaraq nəfəsi dərmək üçün dayanmalar arasında sıçramaların uzunluğu təqribən 20 – 40 addım olmalıdır.

168. Qaçaraq dincəlmə yerinə çatıb 162-ci maddədə göstərildiyi kimi uzanmalı və sürünüb bir qədər yana keçməli, komandada göstərilən yerə çatdıqda ondan əlavə, atəş açmağa hazırlaşmalı.

169. Sıçrama vaxtı silahı rahat üsulla tutmalı.

170. Sürünmə **“Əsgər İbrahimli, ayrı ağacın yanına, sürünərək – İRƏLİ”** komandası ilə dirsəklər üstündə, iməkləyərək, yaxud böyrü üstündə üsulları ilə yerinə yetirilir.

171. Xəbərdarlıq komandasında nəfəs dərmək üçün örtülü yerlərə sürünmə yolunu nəzərdə tutmalı, icra komandasında göstərilən üsulların biri ilə sürünməli.

172. **Dirsəklər üstündə** sürünmək üçün yerə tam uzanıb, sağ əllə silahın lülə yatağının yanında qayışdan tutub, onu sağ bazu önünün üstünə qoymalı (şəkil 20).

173. Sağ (sol) ayağı yığıb, eyni zamanda sol (sağ) qolu mümkün qədər irəli uzatmalı; yığılmış ayaqla özünü itələyərək bədəni irəli verməli; o biri ayağı yığıb, o biri qolu irəli uzatmalı və hərəkəti həmin qayda ilə davam etdirməli. Sürünərkən başı çox hündürə qaldırmamalı.



Şəkil 20. ***Dirsəklər üstündə sürünmə***

174. **İməkləyərək** sürünmək üçün (şəkil 21) dizlər üstə durub, bazu önlərinə, yaxud əllərə söykənməli. Bükülmüş sağ (sol) ayağı sinənin altına çəkib eyni zamanda sol (sağ) qolu irəli uzatmalı. Sağ (sol) ayağın tamamilə düzəldilməsinə qədər bədəni irəli verməli, eyni zamanda o biri bükülmüş ayağı öz altına çəkib, digər qolu qabağa uzatmalı və hərəkəti həmin qayda ilə davam etdirməli.

175. Silahı, bazu önlərinə söykənərək sürünəndə dirsəklər üstündə sürünmə kimi, əllərə söykənərkən sürünəndə sağ əldə tutmalı.



Şəkil 21. ***İməkləyərək sürünmə***

176. **Böyrü üstündə** sürünmək üçün (şəkil 22) sol böyrü üstə uzanmalı; dizdən bükülmüş sol ayağı qabağa çəkib sol bazu önünə söykənməli, sağ ayağın dabanını bədənə mümkün qədər yaxınlıqda yerə dayamalı; sağ ayağı açaraq sol ayağın vəziyyətini dəyişmədən bədəni irəli verməli və sonra hərəkəti həmin qayda ilə davam etdirməli.

177. Silahı sol ayağın ombası üzərinə qoymaqla sağ əldə tutmalı.



Şəkil 22. ***Böyrü üstə sürünmə***

## 5-ci fəsil. BÖLMƏ BAYRAQCIĞI İLƏ HƏRƏKƏTLƏR

178. Sıra duruşu **“Farağat”** komandasında bayraqcıq sapının dəmir ucluğu sağ ayağın çöl kənarına bitişik şəkildə yerə qoyulur. Bayraqcıq sapı sağ əllə tutularaq çiyinə söykədilir. Bədənin digər hissələri silahla sıra duruşunda olduğu kimidir (şəkil 23).



**Şəkil 23. Bayraqcıqla sıra duruşu**

179. **“Azad”** vəziyyətində bayraqcıq sapının dəmir ucluğunun yerini dəyişdirmədən sağ əl sapla yuxarı sürüşdürülərək yerə paralel və qabağa uzadılır. Bədənin digər hissələri 55-ci maddədə göstərilən vəziyyətə gətirilir (şəkil 24).

180. Bölmə bayraqcığı ayaq yanında vəziyyətində olan silahlarla hərəkət üçün **“Çiyinə – AL”, “Qayışa – AL”, “Çarpaz – TUT”** komandasında üç saya yerinə yetirir.

180.1. Birinci say. Sol əllə bayraqcığın sapından sağ əlin dirsəyi səviyyəsində tutmalı.

180.2. İkinci say**.** Sol əllə sapı sağ əlin içi ilə çiyin səviyyəsinə qaldırmalı.

180.3. Üçüncü say**.** Hər iki əllə sapı, sağ əl kəmər, sol əl alın səviyyəsinə qədər qaldırılıb sapı bədəndən bir ovuc aralığında bədənin ortasında saxlamalı (şəkil 25).

181**.** Bölmə bayraqcığı **“Addımla”** xəbərdarlıq komandası ilə “Qaldırılma” vəziyyətindən üç sayla daşınma vəziyyətinə gətirilir (şəkil 26).

181.1. Birinci say. Sağ əli sapın vəziyyətini dəyişdirmədən qol açılana qədər sapla sürüşdürməli.

181.2. İkinci say. Hər iki əlin sağa tərəf hərəkəti ilə sapın dəmir ucluğunu yerdən 15 sm yüksəklikdə sağ çiyin boşluğuna söykəməli.

181.3. Üçüncü say. Sağ əllə baş barmaq arxada və dörd barmaq irəlidə sapı bərk tutmalı, sol əli sərt hərəkətlə yana salmalı (şəkil 26).



Şəkil 24. ***Bayraqcıqla "Azad" vəziyyəti***



Şəkil 25. ***Bayraqcığın qaldırılması***



Şəkil 26. B***ayraqcığın daşınma vəziyyəti***



Şəkil 27. ***Yüyürərkən bayraqcığın daşınması***

182. Bayraqcıq daşıma vəziyyətindən sıra duruşu vəziyyətinə **"DUR"** komandası ilə sapı sağ əlin ovucu ilə yerə dəyənə qədər sürüşdürülərək gətirilir.

183. Bölmə bayraqcığı, yüyürərkən sərbəstcə sapın yuxarı ucu sola yuxarı, aşağı ucu sağa aşağı vəziyyətdə bədənin ortasının qabağında, sağ qolun dirsəyi bədənə yaxın, sol əl yaxa səviyyəsində tutulur (şəkil 27). Yürüşdən addımla yerişə keçdikdə bayraqcıq sərbəst daşıma vəziyyətinə keçirilir. Bölmə bayraqcığının təyinatı, sırada yeri və yerində dönmələr 5-ci əlavədə göstərilir.

184. **"Farağat, diqqət – SAĞA (SOLA)"** komandasında bölmə bayraqcığı **"**Qaldırma**"** vəziyyətinə gətirilir və sonra sol qol ilə önə doğru endirilir (şəkil 28). Bayraqcığın sapı sağ qoltuğun altına alınaraq düz tutulur, sağ qol dirsəkdən azca bükülür, baş barmaq bayraqcıq istiqamətində, digər dörd barmaq yumruq vəziyyətində, sapın altından tutulur. Sağ qolun dirsəyə qədər olan hissəsi bədənə

yapışıq olur. Sapın alt dəmir uclu hissəsi sağ qoltuğun altından iki qarışa qədər çıxarılır. Sol əl sərt şəkildə yana endirilir, başı rəisə tərəf çevirib nəzəri ilə onu müşayiət edir, hərəkətdə isə qolla hərəkəti davam etdirir və rəisin yanından keçəndən sonra baş düz tutulur.

185. **“Azad”** komandası verildikdə sol əllə bayraqcığın sapından tutub yuxarı “Qaldırılma” vəziyyətini alandan sonra **“Azad”,** hərəkətdə isə **“Daşınma”** vəziyyətinə gətirilir.



Şəkil 28. ***Bayraqcıqla salam vermə vəziyyəti***

## 6-cı fəsil. MANQA, TAQIM, BÖLÜK, TABOR VƏ BRİQADANIN PİYADA SIRALARI

### 1. Manqanın sıraları

#### Açıq sıra

186. Manqanın açıq sırası **bir cərgə,** yaxud **iki cərgə** ola bilər.

Manqanın bir cərgə (iki cərgə) sıraya düzülüşü **“Manqa, bir cərgə** (iki cərgə) **– DÜZÜL”** komandası ilə yerinə yetirilir.

187. Manqa komandiri komandanı verdikdən dərhal sonra üzü düzülüşün önünə tərəf **“FARAĞAT”** vəziyyətində durur, komandirdən sol tərəfdə manqa 29 və 30-cu şəkillərdə göstərildiyi kimi

Nizamnamə ilə müəyyən edilmiş distansiya və intervalı saxlayaraq düzülür; sıradakıların çəkmələrinin ucu bir xətdə olmalıdır.




Şəkil 29. ***Manqanın açıq sırası – bir cərgə***




Şəkil 30. ***Manqanın açıq sırası – iki cərgə***

188. Düzülüşün başlanması ilə manqa komandiri sıradan çıxır və manqanın düzülməsinə diqqət yetirir.

189. Sayı dörd nəfər və ondan az olan manqa (ekipaj, heyət) həmişə bir cərgə düzülür (şəkil 31).

190. Manqanı yerində düzləndirmək lazım olduqda **“DÜZLƏN”**, yaxud “**Sola – DÜZLƏN**” komandası verilir.

191. **“Düzlən”** komandasında sağ cinahda durandan başqa, digərləri başını sağa (sağ qulaq sol qulaqdan yuxarı, çənə bir qədər qaldırılmış) döndərməli və özünü birinci sayıb, dördüncü yoldaşının sinəsini görməlidir. “**Sola – DÜZLƏN**” komandasında sol cinahda durandan başqa, digərləri başını sola (sol qulaq sağ qulaqdan yuxarı, çənə bir qədər qaldırılmış) döndərirlər.

192. Düzlənərkən hərbi qulluqçular bir qədər irəli, sağa, sola və geri çəkilə bilərlər.

193. Ayaq yanında vəziyyətində olan karabinlə (pulemyotla) düzlənərkən bundan əlavə, icra komandasında silahın süngüsünü (lülə hissəsini) özünə tərəf çəkib sağ tərəfə sıxmalı.

194. Düzlənmə başa çatdıqda **“FARAĞAT”** komandası verilir, bütün hərbi qulluqçular başlarını qabağa döndərir, karabinləri (pulemyotları) əvvəlki vəziyyətə qaytarırlar. Manqanı geriyə döndər-

dikdən sonra düzləndirdikdə komandada tərəf göstərilir, məsələn: **“Sağa** (sola)**– DÜZLƏN”**.

195. **Yerində “AZAD” və “Geyim formasını–DÜZƏLT”** komandaları ilə hərbi qulluqçular 55-ci maddədə göstərildiyi kimi hərəkət etməlidirlər.

196. **“Manqa – DAĞIL”** komandası ilə hərbi qulluqçular sıradan müxtəlif istiqamətlərə dağılırlar. Manqanı toplamaq üçün **“Manqa – YANIMA”** komandası verilir; bu komandada hərbi qulluqçular qaçaraq komandirin yanına toplanır və onun əlavə komandası ilə düzülürlər.

197. Manqanın dönmələri bütün hərbi qulluqçular tərəfindən eyni vaxtda, düzlənməyə riayət edərək 61-63, 86-91, 127-ci maddələrdə göstərilən komandalar və qaydalarla yerinə yetirilir.

198. Manqanı iki cərgə sırada sağa (sola) döndərdikdə manqa komandiri yarım addım sağa (sola) keçib 32-ci şəkildə göstərildiyi vəziyyəti alır.

199. Yerində manqanın sırasını aralamaq üçün **“Manqa, sağa** (sola, mərkəzdən) **–AÇIL”**, yaxud **“Manqa, sağa** (sola, mərkəzdən), **1-2-3 və s. addım –AÇIL** (qaçaraq –AÇIL)**”** komandası verilir. İcra komandasında istiqamətləndiricidən başqa, bütün hərbi qulluqçular göstərilən tərəfə dönür, ayaqlarını bir-birinə yaxınlaşdırmaqla eyni vaxtda başlarını sıranın ön tərəfinə çevirib tez-tez yarımaddımlarla (qaçaraq) hərəkət edir, intervalı saxlamaq üçün arxada gələnin hərəkətlərinə çiynindən (sağ və ya sol) baxaraq ondan aralanmırlar, arxada gələn dayanandan sonra bir addım, yaxud komandada göstərilən addımı atıb durur və sola (sağa) dönürlər.

200. Əgər interval göstərilməyibsə, aralanma bir addım olur.

201. Aralanma mərkəzdən başladıqda kimin mərkəz olduğu göstərilir. Mərkəz adlandırılmış hərbi qulluqçu öz soyadını eşidəndə **“Mən”** cavabı verir, sol qolunu irəli uzadır və aşağı salır.

202. Sıranı düzləndirərkən aralanmada təyin edilmiş interval saxlanır.

203. Yerində manqanın sırasını sıxlaşdırmaq üçün **“Manqa, sağa** (sola, mərkəzə) **– SIXLAŞ”** komandası verilir. İcra komandası

ilə sıxlaşma istiqamətində təyin edilmiş şəxsdən başqa digərləri sıxlaşma tərəfinə dönür, tez-tez yarımaddımlarla (qaçaraq) müəyyən edilmiş intervala çatıqda sərbəst dayanır və sola (sağa) dönür.

204. Manqanın hərəkətə başlaması üçün **"Manqa, qayışa – AL**" (**çiyinə**); **"Addımla** (sıra addımı ilə, qaçaraq) **– MARŞ"** komandaları verilir. Lazım olduqda, komandada hərəkət istiqaməti və düzlənmə tərəfi göstərilir, məsələn: **"Manqa, qayışa – AL**", **"Tank istiqamətinə, diqqət sağa** (sola), **addımla** (sıra addımı ilə, qaçaraq) **– MARŞ"** komandaları verilir.

205. **"Marş"** komandasında bütün hərbi qulluqçular eyni vaxtda düzlənməni, eləcə də ara məsafəsini gözləyərək sol ayaqla hərəkətə başlamalıdırlar.

206. Düzlənmə üçün diqqət istiqaməti göstərilmədikdə, diqqət istiqaməti başı döndərmədən sağ cinaha tərəf yerinə yetirilir.

207. Manqanı dayandırmaq üçün **"Manqa – DUR"** komandası verilir.

208. Hərbi qulluqçularda müxtəlif silah növləri olduqda və onlardan hər hansı birini başqa vəziyyətə keçirmək lazım gəldikdə, komandada bu silahın adı göstərilir, məsələn: **"Avtomatı sinəyə-AL", "Pulemyotu sinəyə – AL", "Karabini sinəyə – AL"** və s.

209. Sıranın durduğu yeri bir neçə addım yana dəyişmək üçün **"Manqa, sağa** (sola) **– DÖN"**, döndükdən sonra **"Beş addım irəli, addımla – MARŞ"** komandası verilir. Hərbi qulluqçular göstərilən qədər addımladıqdan sonra manqa **"Sola** (sağa) **– DÖN"** komandası ilə əvvəlki vəziyyətə döndərilir.

210. Sıranın durduğu yeri irəli, yaxud bir neçə addım geri dəyişmək üçün **"Manqa, üç addım irəli** (geri), **addımla – MARŞ"** komandası verilir. Bu komanda ilə göstərilən qədər addım irəli (geri) atıb dayanmalı. Geriyə addımladıqda əllərlə hərəkət etməməli.

211. Saysız getmək lazım gəldikdə **"SAYSIZ MARŞ"**, sayla getmək üçün **"SAYLA MARŞ"** komandaları verilir (ayaqların hərəkəti öndə gedənənin ayaq hərəkətlərinə, yaxud komandirin sayına görə tənzimlənir).

212. Hərəkətdə **“FARAĞAT”**, **“AZAD”** və **“Geyim formasını – DÜZƏLT”** komandaları ilə hərbi qulluqçular 34-cü maddədə göstərildiyi kimi hərəkət etməlidirlər.

213. Hərəkətdə açılma və sıxlaşma üçün yerində verilən komandalar verilir, bu zaman ona görə açılma (sıxlaşma) aparılası hərbi qulluqçu icra komandasında yarımaddımlarla yeriyir, digərləri isə yarımsağa və yarımsola dönür, hərəkəti davam etdirərək komandaya müvafiq açılır, yaxud sıxlaşırlar.

214. Göstərilən intervalı götürdükdən sonra hər bir hərbi qulluqçu müstəqil hərəkət tərəfinə dönür, yarımaddımlarla hərəkəti davam etdirərək açılma (sıxlaşma) cinahına (mərkəzə) görə düzlənir, **“İRƏLİ MARŞ”** komandası ilə hərəkət tam addımlarla davam etdirilir.

215. İstiqaməti çiyinlə hərəkət zamanı dəyişmək üçün **“Manqa**, **sağ** (sol) **çiyin irəli, addımla – MARŞ”** (hərəkətdə – “MARŞ”) komandası verilir.

216. Bu komanda ilə manqa sağ (sol) çiyin ilə hərəkətə başlayır: hərəkət zamanı cinahda gedən başını sıranın ön tərəfinə çevirib, tam addımlarla yeriyir və öz yerişini elə uyğunlaşdırır ki, qalanlarını hərəkət etməyən cinaha sıxışdırmasın, hərəkət etməyən cinahda duran isə yerində addımlayır və tədricən hərəkət edən cinahın hərəkəti ilə uyğunlaşaraq sağa (sola) dönür; qalanları hərəkət edən cinahdan uzaqlıqdan asılı olaraq addımlarını qısa atır, gözləri ilə (başlarını çevirmədən) hərəkət edən cinaha tərəf baxır və dayanmadan cinah tərəfdəki qonşusunu dirsəyi ilə hiss edərək düzlənməni gözləyirlər.

217. Manqa lazımi qədər hərəkət etdikdə **“İRƏLİ”,** yaxud **“DUR”** komandası verilir.

218. Manqanı bir cərgə sıradan iki cərgə sıraya yenidən düzmək üçün qabaqcadan **“Manqa, iki saya– SAYIL”** komandası ilə bir və iki saydırılır.

219. Say sağ cinahdan başlanır: hər bir hərbi qulluqçu başını solundakı hərbi qulluqçuya tərəf cəld döndərir, öz sıra nömrəsini

deyir və tez başını qabağa çevirir, sol cinahda dayanan başını döndərmir.

220. Ümumi say sırası da bu qayda ilə aparılır, bunun üçün **“Manqa, sıra ilə – SAYIL”** komandası verilir.

221. İki cərgə sıranın sol cinahında ikinci cərgədə dayanan sıranın ümumi nömrə sayı başa çatdıqda məruzə edir: **“Say BİTDİ”**.

222. Manqanı yerində bir cərgə sıradan iki cərgə sıraya yenidən düzmək üçün **“Manqa, iki cərgəyə – DÜZÜL”** komandası verilir.

223. İcra komandasında bütün ikinci nömrələr bir sayı ilə sol ayaqla geriyə bir addım atır, iki sayı ilə birinci nömrələrin arxasında durmaq üçün sağ ayağını o birinə yaxınlaşdırmadan sağa bir addım atır və üç sayı ilə sol ayağı sağ ayağa birləşdirirlər.

224. Manqanı yerində sıxlaşmış iki cərgə sıradan bir cərgə sıraya düzmək üçün qabaqcadan cərgələr bir addımlığa aralandırılır və sonra **“Manqa, bir cərgəyə – DÜZÜL”** komandası verilir.

225. İcra komandası ilə ikinci nömrələr bir sayı ilə sol ayaqla sola, iki sayı ilə sağ ayağı solun yanına qoymadan bir addım irəli atır və üç sayı ilə sol ayağı sağa yanaşdırmaqla birincilər xəttinə çıxırlar.

226. Silahlar **“Manqa, silahı – QOY”** komandası ilə yerə qoyulur. Xəbərdarlıq komandasında avtomatlar və əl qumbaraatanları sağ ələ, karabin və pulemyotlar ayaq yanına götürülür; bundan başqa, pulemyotların məhmizcikləri açılır. İcra komandası ilə birinci cərgə iki addım irəli yeriyir, sonra hər iki cərgə eyni vaxtda sol ayağı bir addım qabağa atıb silahı çaxmaq dəstəyi (çərçivəsi) aşağı, daban arxası sağ ayaq dizdən bükülmədən ayağın pəncəsi yanında yerə qoyur, sonra sol ayağı sağ ayağa birləşdirir.

227. Əl qumbaraatanları yerə lülə dəstəyi sola, pulemyotlar məhmizciklər üstünə qoyulur.

228. Bir cərgə sırada icra komandası ilə, ancaq sonuncu iki hərəkət yerinə yetirilir.

229. Silahları yerdən götürmək üçün **“Manqa, silah YANINA”** sonra isə “**SİLAHA”** komandaları verilir.

230. Birinci komanda ilə manqa silahların yanında elə düzülür ki, silahların qundaq arxaları sağ ayaq pəncəsi önündə olsun. İkinci komanda ilə hərbi qulluqçular sol ayaqla irəli bir addım atırlar, silahı sağ əlinə götürüb bədənlərini düzəldərək sol ayağı sağ ayağa birləşdirirlər. İkinci cərgə iki addım irəli atır. Sonra hər iki cərgə eyni vaxtda silahları "qayışda" vəziyyətinə götürür. Qabaqcadan pulemyotların məhmizcikləri qatlanır.

### Səfər sırası

231. Manqanın səfər sırası bir kolon, yaxud iki kolon ola bilər. Manqa durduğu yerdə bir (iki) kolona **"Manqa, bir** (iki) **kolona – DÜZÜL"** komandası ilə düzülür. Manqa komandiri komandanı verdikdən sonra üzü hərəkət tərəfə **"FARAĞAT"** durur, manqa komandirin arxasında 31 və ya 32-ci şəkillərdə göstərildiyi kimi düzülür. Dörd nəfər və az olan manqa (ekipaj, heyət) həmişə bir kolona düzülür.

232. Manqanı açıq sıradan kolona yenidən düzmək, onu **"Manqa, sağa – DÖN"** komandası ilə sağa döndərməklə yerinə yetirilir. İki cərgə sıranı döndərdikdə manqa komandiri sağ tərəfə yarım addım atır.

233**.** Manqanı kolondan açıq sıraya yenidən düzmək, onu **"Manqa, sola – DÖN"** komandası ilə sola döndərməklə yerinə yetirilir. Manqanı iki kolondan döndərdikdə manqa komandiri yarım addım irəli atır.




Şəkil 31. ***Manqanın səfər sırası – bir-bir kolon***




Şəkil 32. ***Manqanın səfər sırası – iki-iki kolon***

234**.** Manqanı bir kolondan iki kolona yenidən düzmək **“Manqa, iki kolonla, addımla – MARŞ”** (hərəkətdə –"MARŞ") komandası ilə yerinə yetirilir.

235. İcra komandası ilə manqa komandiri (öndə gedir) yarımaddımlarla gedir, ikincilər sağa çıxaraq addımların taktı ilə 32-ci şəkildə göstərildiyi kimi öz yerlərini kolonda tuturlar, **“İRƏLİ MARŞ”**, yaxud **“Manqa– DUR”** komandasına kimi manqa yarımaddımlarla gedir.

236. Manqanı iki kolondan bir kolona yenidən düzmək **“Manqa, bir kolonla addımla – MARŞ”** (hərəkətdə –“MARŞ”) komandası ilə yerinə yetirilir.

237. İcra komandası ilə manqa komandiri (öndə gedən) tam addımlarla, digərləri yarımaddımlarla gedirlər; yerlər boşaldıqca ikinci nömrələr addımların taktı ilə birincilərin arxasına keçir və hərəkəti tam addımlarla davam etdirirlər (şəkil 31).

238. Kolonun hərəkət istiqamətini dəyişmək üçün komandalar verilir: –**"Manqa, sağ** (sol) **çiyin irəli – MARŞ".** Bu komanda ilə öndə gedən (gedənlər) **"İRƏLİ MARŞ"** komandasına qədər sola (sağa) dolanır, qalanlar onların arxasınca hərəkət edirlər; –**"Manqa, arxamca – MARŞ** (qaçaraq – MARŞ)**"**, bu komanda ilə manqa komandirin arxasınca gedir; –**"Manqa, geriyə – MARŞ"**, bu komanda ilə manqa 86-91-ci maddələrdə göstərilən qaydalarla eyni vaxtda geriyə dönür.

## Sıra ilə yerində və hərəkətdə əsgəri salamlaşma

239**.** Sıra ilə yerində əsgəri salamlaşma üçün rəis 20–25 addımlığa çatdıqda manqa komandiri komanda verir: **"Manqa – FARAĞAT, diqqət – SAĞA** (SOLA, MƏRKƏZƏ)**"**. Manqanın hərbi qulluqçuları **"farağat"** vəziyyəti alıb, eyni vaxtda başlarını sağa (sola) döndərərək rəisi nəzərləri ilə müşayiət edirlər.

240. Rəis sıranın arxa tərəfindən gəldikə, manqa komandiri manqanı geriyə döndərib, sonra əsgəri salamlaşma üçün komanda verir.

241. Manqa komandiri silahsız, yaxud silahı "arxada" vəziyyətində olduqda əsgəri salamlaşma üçün sağ əlin orta barmağının ucunu sağ qaşın sağ ucuna yaxınlaşdırır; silahı "çiyində", "qayışda", yaxud "sinədə" vəziyyətində olduqda, silahı saxlamayan əl ilə hərəkəti davam etdirərək sıra addımları ilə rəisə yaxınlaşır, rəisə iki-üç addım qaldıqda dayanır və raport verir, məsələn: **"Cənab baş leytenant, birinci manqa sıra hazırlığı ilə məşğuldur. Manqa komandiri çavuş Mürşüdlü"**.

242. Əsgəri salam verilən rəis salamlaşmaq üçün komanda verildikdən sonra əsgəri salam verir.

243. Manqa komandiri raport verir, əlini aşağı salmadan sol (sağ) ayağı ilə yana bir addım atır, eyni vaxtda sağa (sola) dönür, rəisi irəli buraxır, bir-iki addımlıqda onun arxasınca sıranın bayır tərəfi ilə gedir.

244. Rəis keçdikdən, yaxud onun **"Azad"** komandasından sonra manqa komandiri **"AZAD"** komandası verir və əlini aşağı salır.

245. Rəis sıradakı hərbi qulluqçuya onun rütbəsi və soyadı ilə müraciət etdikdə, hərbi qulluqçu **“MƏN”** cavabı verir; hərbi qulluqçuya rütbəsi ilə müraciət edildikdə, o öz rütbə və soyadını bildirir; bu halda əsgəri salam verilmir və silahın vəziyyəti dəyişdirilmir.

246. Sıra ilə hərəkətdə əsgəri salamlaşma üçün rəisə 20–25 addım qalmış manqa komandiri komanda verir: **“Manqa – FARAĞAT, diqqət – SAĞA** (SOLA)**”**. **“Farağat”** komandası ilə bütün hərbi qulluqçular sıra addımlarına keçirlər, **“Diqqət sağa (sola)”** komandası ilə sıradakılar başlarını rəisə tərəf döndərir, əllərlə, yaxud silah tutmayan əllə hərəkəti davam edirlər. Karabin "çiyində" vəziyyətindədirsə, silah tutmayan əlin hərəkəti də dayandırılmır. Manqa komandiri silahsızdırsa, yaxud silahı “arxada” vəziyyətindədirsə başını döndərir, əsgəri salam verir.

247. Rəis ötüb keçdikdən sonra, yaxud onun **“Azad”** komandası ilə manqa komandiri **“AZAD”** komandası verib sağ əlini aşağı salır və başını önə döndərir.

248. Rəisin **“Salam”** deyib salamlaşmasına, yaxud elan etdiyi təşəkkürə hərbi qulluqçular ucadan, aydın və birgə **“Sağ ol!”** cavabını verirlər. Hərəkətdə cavabın eyni səslənməsi üçün onu bütün hərbi qulluqçular sol ayağın yerə qoyulması ilə başlayır, sonrakı hər addımda cavabın bir sözünü deyirlər.

## 2. Taqımın sıraları

### Açıq sıra

249. Taqımın açıq sırası bir cərgə, yaxud iki cərgə ola bilər. Taqımın açıq sıraya düzülüşü **“Taqım, bir cərgə (iki cərgə) – DÜZÜL”** komandası ilə yerinə yetirilir.

250.Taqım komandiri komandanı verdikdən dərhal sonra üzü düzülüşün önünə tərəf **“farağat”** vəziyyətini alır. Manqalar 33 və 34-cü şəkillərdə göstərildiyi kimi komandirdən sola düzülürlər. İki cərgə sırada hər bir manqanın axırıncı səfi tamam olmalıdır.

251. Manqalar düzülüşə başlayanda taqım komandiri sıradan çıxır və taqımın düzülməsinə diqqət yetirir.

252. Manqalarında (ekipajlarında, heyətlərində) şəxsi heyətin sayı üç, yaxud dörd nəfər olan taqım iki cərgə sıraya 35-ci şəkildə göstərildiyi kimi düzülür.

253. Taqımın açıq sıraya düzülüşü, dönmələri, yenidən düzülüşü və başqa hərəkətləri manqa üçün müəyyən edilmiş komanda və qaydalarla yerinə yetirilir.

254**.** Taqımın bir cərgə sıradan yenidən iki cərgəyə və əksinə düzülməsi 222-225-ci maddələrdə müəyyən edildiyi kimi yerinə yetirilir. Taqımı manqalarla birinci və ikincilərə saydırdıqda manqa komandirləri hesaba alınmırlar.










**b. (manqada üç nəfər)**




**a. (manqada dörd nəfər)**

Şəkil 33. ***Taqımın açıq sırası – bir cərgə***

Şəkil 34. ***Taqımın açıq sırası – iki cərgə (manqalarla)***

Şəkil 35. ***Taqımın açıq sırası – iki cərgə (ekipajlarla, heyətlərlə)***

## Səfər sırası

255. Taqımın səfər sırası üç, iki, yaxud bir kolon ola bilər (şəkil 36, 37, 38).




*Şəkil 36. **Taqımın səfər sırası – üç kolonda***

256. Taqımı yerində üç kolona düzmək üçün **“Taqım, üç kolona – DÜZÜL”** komandası verilir. Bu komanda ilə manqalar 36-cı şəkildə göstərildiyi kimi düzülürlər.

257. Manqalarında (ekipajlarında, heyətlərində) dörd və üç nəfər olan taqım iki kolon səfər sırasına 39-cu şəkildə göstərildiyi kimi düzülür.

258. Taqımın açıq bir cərgə sıradan bir kolona (açıq iki cərgə sıradan iki kolona) yenidən düzülüşü taqımı sağa döndərməklə yerinə yetirilir.

259. Taqımın açıq iki cərgə sıradan bir kolona (bir cərgə sıradan iki kolona) yenidən düzülüşü **“Taqım, sağa – DÖN, qayışa – AL** (**çiyinə – AL), bir** (iki) **kolonla, addımla – MARŞ”** (hərəkətdə – “MARŞ”) komandası ilə yerinə yetirilir.

260. “**MARŞ**” komandası ilə birinci manqa hərəkətdə 236-237-ci maddələrdə göstərildiyi kimi bir kolona, 234-235-ci maddələrdə göstərildiyi kimi iki kolona yenidən düzülür, qalan manqalar növbə ilə bir (iki) kolona yenidən düzülərək bir-birinin arxasında birinci manqanın ardınca gedirlər.

261**.** Taqımın açıq iki cərgə sıradan üç kolona yenidən düzülüşü **“Taqım, sağa – DÖN, qayışa – AL**” (**çiyinə – AL),** üç **kolonla, addımla – MARŞ”** (hərəkətdə – “MARŞ”) komandası ilə yerinə yetirilir.

262. **“Marş”** komandası ilə birinci manqa yarımaddımlarla gedərək hərəkətdə bir kolona yenidən düzülür, qalan manqalar sola çıxaraq müəyyən edilmiş intervalı saxlayaraq, bir kolona yenidən düzülür və birinci manqa xəttinə çıxırlar, sonra taqım komandiri **“İRƏLİ ADDIMLA MARŞ”**, yaxud **“Taqım – DUR”** komandası verir.




*Şəkil 37.* ***Taqımın səfər sırası – iki-iki kolonda***




*Şəkil 38.* ***Taqımın səfər sırası – bir kolonda***




*Şəkil 39.* ***Taqımın səfər sırası. Manqalarda: a) dörd nəfər, b) üç nəfər***

263. Taqımın bir kolondan açıq bir cərgə (iki kolondan açıq iki cərgə) sıraya yenidən düzülüşü taqımı sola döndərməklə yerinə yetirilir.

264. Taqımın üç kolondan iki kolona yenidən düzülüşü **“Taqım iki kolonla, addımla – MARŞ”** (hərəkətdə – “MARŞ”) komandası ilə yerinə yetirilir.

265. Bu komanda ilə birinci manqa düz gedərək hərəkətdə 234-235-ci maddədə göstərildiyi kimi iki kolona yenidən düzülür, qalan manqalar yerində addımlayır və sonra iki kolona yenidən düzülərək növbə ilə öndə gedən manqanın arxasına keçirlər.

266. Taqımı üç kolondan açıq iki cərgə sıraya yenidən düzmək üçün əvvəl taqımı 264-265-ci maddələrdə göstərildiyi kimi iki kolona yenidən düzür və sonra 263-cü maddədə göstərildiyi kimi hərəkət edirlər.

267. Taqımın üç kolondan bir kolona yenidən düzülüşü **"Taqım, bir kolonla, addımla – MARŞ"** (hərəkətdə – "MARŞ") komandası ilə yerinə yetirilir.

268. Bu komanda ilə birinci manqa düz gedir, qalan manqalar yerlərində addımlayaraq manqalar kolondan çıxdıqca növbə üzrə öz komandirlərinin **"DÜZÜNƏ"** komandası ilə öndə gedən manqanın arxasınca tam addımla gedirlər.

269. Taqımın bir kolondan üç kolona yenidən düzülüşü **"Taqım, üç kolonla, addımla – MARŞ"** (hərəkətdə – "MARŞ") komandası ilə yerinə yetirilir.

270. Bu komanda ilə birinci manqa yerində addımlayır, qalan manqalar birinci manqaya çatanadək taqım komandirinin **"DÜZÜNƏ",** yaxud **"Taqım – DUR"** komandasına qədər yerində addımlayırlar.

271. Taqımın iki kolondan üç kolona yenidən düzülüşü **"Taqım, üç kolonla, addımla – MARŞ"** (hərəkətdə – "MARŞ") komandası ilə yerinə yetirilir. "Marş" komandasında taqım 261-262-ci maddələrdə göstərildiyi kimi üç kolona yenidən düzülür.

272. Taqımı toplamaq üçün **"Taqım – YANIMA"** komandası verilir. Bu komanda ilə manqalar qaçaraq taqım komandirinin yanına toplanır və onun əlavə komandası ilə düzülürlər.

273. Taqımın səfər sırasının hərəkət istiqamətinin dəyişdirilməsi manqanın səfər sıraları üçün göstərilən komandalar və qaydalarla yerinə yetirilir.

## Sıra ilə yerində və hərəkətdə əsgəri salamlaşma

274. Taqımla sıranın yerində və hərəkətdə əsgəri salamlaşma manqa üçün göstərildiyi kimi yerinə yetirilir (239-248-ci maddələr).

275. Taqım komandirinin müavini və manqa komandirləri sırada öz yerlərində olur və əsgəri salam vermirlər.

276. Hərəkət vaxtı əsgəri salamlaşma komandası ilə mahnı ifası dayandırılır.

## 3. Bölüyün sıraları
## Açıq sıra

277. Bölüyün açıq sırası **iki cərgə,** yaxud **taqım kolonları xətti** (taqımlar –üç kolonda; xüsusi bölmələr –iki kolonda) ola bilər.

278. Zərurət olduqda bölük bir cərgə sıraya düzülə bilər.




Şəkil 40. ***Bölüyün açıq sırası: iki cərgə***

279. Bölüyün açıq sıraya düzülüşü **"Bölük, iki cərgə – DÜZÜL"**, yaxud **"Bölük, taqım kolonları xəttinə – DÜZÜL"** komandası ilə yerinə yetirilir. Bölük birinci taqıma görə düzülür.




Şəkil 41. ***Bölüyün açıq sırası: taqım kolonları xətti***

280. Bölük komandiri komanda verdikdən sonra üzü düzülüşün önünə tərəf **“farağat”** vəziyyətində durur. Birinci taqım komandiri **“Taqım, iki cərgə** (üç kolona) **– DÜZÜL”** komandası verdikdən sonra öz taqımını bölük komandirindən solda düzür. Digər taqımlar öz komandirlərinin komandası ilə nömrələrinə görə birinci taqımdan solda düzülürlər (şəkil 40, 41). Birinci taqımın düzülüşə başlaması ilə bölük komandiri sıradan çıxır və onun düzülüşünə diqqət yetirir.

281. Xüsusi bölmə üçüncü taqımdan solda, idarə qrupu birinci taqım komandirindən sağda iki cərgə düzülürlər.

282. Bölüyün bayraqcığı və şeypurçu-təbilçi çıxarılırsa, bayraqcığı daşıyan bölük komandirinin solunda, şeypurçu-təbilçi onun solunda, bölüyün baş çavuşu bölüyün sol cinahında dururlar.

283. Bölüyü iki cərgə sıraya düzərkən dörd və üç nəfərdən ibarət manqaları (ekipajları, heyətləri) olan taqımlar 35-ci şəkildə göstərildiyi kimi düzülməlidirlər.

284. Açıq sırada bölüyün düzləndirilməsi, döndərilməsi, yenidən düzülüşü və başqa hərəkətləri manqa və taqım üçün göstərilmiş komandalar və qaydalarla yerinə yetirilir.

## Səfər sırası

285. Bölüyün səfər sırası **üç kolon**, yaxud **iki kolon** ola bilər (şəkil 42, 43).

286. Bölüyün yerində üç (iki) kolona düzülməsi **“Bölük, üç** (iki) **kolona – DÜZÜL”** komandası ilə yerinə yetirilir. Bu komanda ilə bölük 42 və 43-cü şəkillərdə göstərildiyi kimi düzülür. Bu halda taqımlar öz komandirlərinin komandaları ilə nömrələrinin ardıcıllığına görə üç (iki) kolona düzülürlər. Xüsusi bölmə üçüncü taqımın arxasında, idarə qrupu isə birinci taqım komandirinin önündə iki kolona düzülürlər.




Şəkil 42. ***Bölüyün səfər sırası – iki kolon***




Şəkil 43. ***Bölüyün səfər sırası – üç kolon***

287. Bölüyü səfər kolonlara düzərkən və yenidən düzərkən bayraqcığı daşıyan bölük komandirinin arxasında ikiaddımlıqda, şeypurçu-təbilçi onun arxasında ikiaddımlıqda, bölüyün baş çavuşu (baş texniki) xüsusi bölmənin arxasında yer tuturlar.

288. Bölüyün taqım kolonları xəttindən səfər kolonlara yenidən düzülüşü **"Bölük, qayışa – AL** (**çiyinə – AL**)**"**; **"Üç** (iki) **səfər kolonunda, arxamca** (yaxud istiqamət göstərilir)**, addımla – MARŞ"**, yaxud **"Bölük, qayışa – AL** (**çiyinə – AL**)**" "Üç,** (iki) **səfər kolonunda, yolla, hərəkət qaydası: idarə qrupu, birinci taqım və s.** (yaxud da başqa hərəkət qaydası göstərilir)**, addımla – MARŞ"** komandası ilə yerinə yetirilir.

289. **"Səfər kolonunda"** komandası ilə taqım komandirləri öz taqımlarının önündə, bayraqcığı daşıyan, şeypurçu-təbilçi və bölüyün baş çavuşu (baş texniki) idarə qrupunun önündə bir-birinin arxasında ikiaddımlıqda yer tuturlar (şəkil 36, 38, 43).

290. İcra komandası ilə idarə qrupu, yaxud komandada göstərilmiş taqım hərəkətə başlayır; qalan bölmələr yerində addımlayırlar. İdarə qrupu, yaxud komandada göstərilən taqım aralandıqca qalan bölmələr öz komandirlərinin **"DÜZÜNƏ"** komandası ilə bölük komandirinin göstərdiyi, yaxud 42 və 43-cü şəkillərdə göstərilən qayda ilə hərəkətə başlayırlar.

291. Zərurət olduqda taqımlar hərəkət əsnasında öz komandirlərinin komandaları ilə bölük komandirinin göstərdiyi qaydada yenidən düzülürlər.

292. Bölüyün üç kolondan taqım kolonları xəttinə yenidən düzülüşü **"Bölük, sola, taqım kolonları xəttinə, addımla – MARŞ"** ( hərəkətdə – "MARŞ") komandası ilə yerinə yetirilir.

293. İcra komandası ilə idarə qrupu, yaxud öndəki taqım yerində addımlayır, digərləri sola, öndəki taqımın xəttinə çıxırlar. Bölük komandirinin **"Bölük – DUR"**, yaxud **"DÜZÜNƏ"** komandasınadək taqımlar öz komandirlərinin **"YERİNDƏ"** komandası ilə yerində addımlayır, ön xəttinə və dərinliyinə görə düzlənirlər. Taqım komandirləri öz taqımlarının sağ cinahında, baş çavuş (baş texnik) idarə qrupunun sağ cinahında yer tuturlar.

294. Bölüyün açıq iki cərgə sıradan iki kolona yenidən düzülüşü onu sağa, iki kolondan açıq iki cərgə sıraya yenidən düzülüşü bölüyü sola döndərməklə yerinə yetirilir.

## Sıra ilə yerində və hərəkətdə əsgəri salamlaşma

295. Sıra ilə yerində əsgəri salamlaşma üçün rəis 40–50 addımlığa çatdıqda bölük komandiri **"Bölük, FARAĞAT, diqqət – SAĞA** (SOLA, MƏRKƏZƏ)" komandası verir.

296. Bu komanda ilə şəxsi heyət **"FARAĞAT "** vəziyyəti alır, başlarını göstərilən tərəfə döndərir, sırada olan taqım komandirləri və bölüyün baş çavuşu (baş texniki) sağ əlin orta barmağının ucunu sağ qaşın sağ ucuna çatdırır.

297. Bölük komandiri komanda verməklə sağ əlin orta barmağının ucunu sağ qaşın sağ ucuna çatdırır, sıra addımları ilə rəisə yaxınlaşır, ona iki-üç addım qalmış dayanır və məruzə edir. Məsələn, **"Cənab mayor, ikinci bölük taktiki hazırlıq məşğələsindədir. Bölük komandiri kapitan Qafarlı"**.

298. Bölük komandiri raport verdikdən sonra əlini aşağı salmadan sol (sağ) ayağı ilə yana 1 addım atmaqla, eyni zamanda sağa (sola) dönür, rəisi irəli buraxaraq bir-iki addımlıqda sıranın bayır tərəfi ilə onun arxasınca hərəkət edir.

299. Rəis ötüb keçdikdən, yaxud onun **"AZAD"** komandasından sonra bölük komandiri **"AZAD"** komandası verir və əlini aşağı salır.

300. Sıra ilə hərəkətdə əsgəri salamlaşma manqa və taqım üçün göstərildiyi kimi yerinə yetirilir. Bu halda taqım komandirləri və bölüyün baş çavuşu (baş texniki) əsgəri salam verirlər.

301. Rəis bölük kolonunu ötüb keçdikdə, əsgəri salamlaşma üçün komanda verilmir, ancaq taqımdan yuxarı bölmə komandirləri, eləcə də bölüyün baş çavuşu (baş texniki) əsgəri salam verirlər.

## 4. Taborun sıraları

### Açıq sıra

302. Taborun açıq sıraları taqım kolonları xətti, bölük kolonları xətti, yaxud iki cərgə ola bilər.

303.Taborun düzülüşü tabor komandirinin göstərişi ilə, yaxud **“Tabor, taqım** (bölük) **kolonları xəttinə DÜZÜL”**, yaxud **“Tabor, iki cərgə – DÜZÜL”** komandası ilə yerinə yetirilir.

304. Tabor taqım kolonları xəttinə 44-cü şəkildə göstərildiyi kimi, bölüklər ön boyu bir xətt üzərində, hər biri taqım kolonları xəttində, hər bir taqım üç kolonda düzülür; taqımların və bölüklərin arası iki addımdır.

305. Tabor bölük kolonları xəttinə 45-ci şəkildə göstərildiyi kimi, ön boyu bir xətt üzərində, hər biri üç kolonlarda düzülür; taqımlararası məsafə 4 addım, bölüklərarası interval 2 addımdır.

306. Taborun iki cərgə düzülüşü 46-cı şəkildə göstərilmişdir.

307. Tabor taqım, yaxud bölük kolonları xəttinə düzülərkən taborun artilleriya, xüsusi və maddi-texniki təminat bölmələri müvafiq olaraq taqım, yaxud bölük (batareya) kolonlarında bölüklərdən solda, kolonlarının başı bölüklər xəttində, bir-birindən ikiaddımlıq intervalda düzülürlər.

308. Tabor komandirinin müavinləri və taborun qərargah rəisi taborun bayraqcığı çıxarılmadıqda, açıq sırada tabor komandirindən solda bir cərgədə, taborun 44, 45 və 46-cı şəkillərdə göstərilməyən zabitləri tabor idarəsinin qalan heyətinin tərkibində düzülürlər. Taborun bayraqcığını daşıyan komandirin solunda durur.




Şəkil 44. ***Taborun açıq sırası – taqım kolonları***




Şəkil 45. ***Taborun açıq sırası-bölük kolonları***




Şəkil 46. ***Taborun açıq sırası- iki cərgə***

## Səfər sırası

309. Taborun səfər sırası (şəkil 47) bölüklərin, artilleriya, xüsusi və maddi-texniki təminat bölmələrinin bir-birinin ardınca iki-addımlıq distansiyada (öndə gedən bölüyün axırıncı cərgəsindən onun arxasınca gedən bölük komandirinə qədər) üç kolonlara düzülmüş səfər sıralarından ibarətdir.

310. Taborun taqım (bölük) kolonları xəttindən səfər kolonuna yenidən düzülüşü komanda ilə, məsələn: **"Tabor, səfər kolonuna, yolla** (hərəkətin başqa istiqaməti göstərilir), **düzülüş qaydası ilə** (yaxud hərəkətin başqa qaydası göstərilir)**, qayışa – AL, birinci bölük – İRƏLİ"** komandası ilə yerinə yetirilir.

311. **"Səfər kolonuna"** komandası ilə bölük komandirləri öz bölüklərinin önündə dörd addımlıqda, taqımların komandirləri öz taqımlarının önündə iki addımlıqda, bölüklərin baş çavuşları (baş texnikləri) idarə heyətinin önündə iki addımlıqda dururlar.

312. İcra komandası ilə taborun bölükləri, artilleriya, xüsusi və maddi-texniki təminat bölmələri öz komandirlərinin komandası ilə (288-ci maddə) ardıcıllıqla yenidən düzülərək hərəkət edirlər.

313. Tabor komandiri öndə gedən bölüyün komandirindən on addım irəlidə, taborun bayraqcıq daşıyanı ondan 2 addım arxada, komandirin müavinləri və taborun qərargah rəisi bir cərgədə ondan ***2*** addım geridə və idarə heyəti onlardan iki addım geridə gedirlər.

314. Tabor səfər sırasından açıq sıraya tabor komandirinin göstərişi, yaxud komandası ilə yenidən düzülür. Göstərişdə taborun hansı sıraya, hansı bölüyə görə, harada və üzü hansı istiqamətə düzülməsi göstərilir.

315. Bölmələr **"Tabor, sola, taqım (bölük) kolonları xəttinə, addımla – MARŞ"** hərəkətdə – "MARŞ") komandası ilə 44, yaxud 45-ci şəkillərdə göstərildiyi kimi yenidən düzülür.




Şəkil 47. ***Taborun səfər sırası–kolon***

## Sıra ilə yerində və hərəkətdə əsgəri salamlaşma

316. Sıra ilə yerində və hərəkətdə əsgəri salamlaşma bölük üçün göstərilənlərə 295- 301-ci maddələr uyğun yerinə yetirilir.

317. Tabor kolonda hərəkət edərkən tabor komandirinin salamlaşması üçün verdiyi komanda növbə ilə bölük (öndə gedən bölükdən başqa) komandirləri tərəfindən qarşıda gedən bölüyün kolonunun ortası rəisə çatdıqda təkrar olunur.

## 5. Briqadanın sıraları

318. Briqadanın açıq sırası taqım, yaxud bölük kolonları xəttinə düzülmüş taborlardan ibarətdir.

319. Briqadanın açıq sırasında sağ cinahda nömrələrinin ardıcıllığı ilə taborlar, onlardan solda artilleriya, hava hücumundan müdafiə bölmələri, xüsusi və maddi-texniki təminat bölmələri düzülürlər. Briqadanın idarə heyəti taborlardan sağda düzülür, briqada komandirinin müavinləri idarə heyətindən sağda, Döyüş Bayrağı ilə düzüldükdə isə ondan sağda dururlar. Taborlar arasında interval 3 addımdır (şəkil 48).

320. Qoşun növləri və xidmət rəisləri və onların tabeliyində olan zabitlər briqadanın qalan idarə heyəti ilə düzülürlər.

321. Briqadanı düzmək üçün hərbi hissə komandiri şəxsən, yaxud qərargah vasitəsilə əmr verir. Əmrdə düzülüşün məqsədi, yeri,

vaxtı və qaydası, geyim forması və ləvazimatı, bölmələrin silahı, döyüş və digər texnikası göstərilir.

322. Briqadanın səfər sırasına (şəkil 49) onu bilavasitə səfər kolonuna düzməklə, yaxud bölük, ya da taqım kolonları xəttində açıq sırasından yenidən düzməklə yerinə yetirilə bilər.

323. Hərəkətdə səfər kolonuna düzüldükdə taborlar, artilleriya, hava hücumundan müdafiə bölmələri, xüsusi və maddi-texniki təminat bölmələri kolonlarla briqadanın düzülüş yerinə gəlir və göstərilən yerlərini tuturlar.




Şəkil 48. ***Briqadanın açıq sırası- bölük, yaxud taqım kolonları***




Şəkil 49. ***Briqadanın  səfər sırası- kolon***

324. Briqadanın açıq sıradan səfər kolonuna yenidən düzülüşü əmrlə, yaxud komanda ilə, məsələn: **“Briqada, səfər kolonuna, yolla** (yaxud hərəkətin başqa istiqaməti göstərilir)**, düzülüş qaydası ilə** (yaxud başqa qayda göstərilir)**, qayışa – AL; birinci tabor – İRƏLİ”** komandası ilə yerinə yetirilir.

325. **“Səfər kolonuna”** komandası ilə tabor komandirləri sıradan çıxır, öz taborlarının önündə duran bölməsinin komandirindən 10 addım irəlidə, onların müavinləri və taborun qərargah rəisi tabor komandirlərinin  arxasında ikiaddımlıqda bir cərgə dururlar; bölük və taqım komandirləri sıradan çıxır və 310-cu maddədə göstərildiyi kimi dururlar. Tabor komandirləri növbə ilə hərəkət üçün komanda verirlər (310-cu maddədə).

326. Briqadanın hərəkəti 48-ci şəkildə göstərildiyi, yaxud briqada komandirinin göstərdiyi başqa qayda ilə yerinə yetirilir; taborlar (divizionlar) arasındakı distansiya durduqları vaxt *3* addım, hərəkətdə 10 addım, başqa bölmələr arasında 3 addım olmalıdır.

327. Briqadanın səfər kolonundan açıq sıraya yenidən düzülüşü əmrlə, yaxud briqada komandirinin komandası ilə yerinə yetirilir.

328. Əmrdə düzülüşün yeri, ön tərəfi, hansı tabora görə və hansı sıraya düzülmək lazım olduğu göstərilir.

329. Briqadanı komanda ilə yenidən düzərkən verilən **"Briqada, sola xətt boyuna, taborlar bölük** (taqım) **kolonları xəttində, addımla – MARŞ"** (hərəkətdə – "MARŞ") komandası ilə bölmələr 48-ci şəkildə göstərildiyi kimi düzülürlər.

330. Sırada yerində və hərəkətdə əsgəri salamlaşma üçün briqada komandiri **"Briqada – FARAĞAT, diqqət – SAĞA** (SOLA, MƏRKƏZƏ)**"** komandası verir.

331. Sırada yerində briqada komandiri komanda verdikdən sonra, sıra addımları ilə rəisə yaxınlaşır və raport verir.

332. Səfər sırasında hərəkət edərkən əsgəri salamlaşma üçün briqada komandirinin verdiyi komanda növbə ilə tabor komandirləri tərəfindən, rəis irəlidə gedən bölüyün kolonunun ortasına çatdıqda təkrar edilir.

## 7-ci fəsil. TAQIM, BÖLÜK, TABOR VƏ BRİQADANIN (HƏRBİ HİSSƏNİN) MAŞINLARDA SIRALARI

### Ümumi müddəalar

333. **Açıq sırada** bölmələrin və hərbi hissələrin maşınları sıranın ön boyu bir xətt üzrə maşınlar və bölmələr arasında Nizamnamənin, yaxud komandirin təyin etdiyi interval və ara məsafəsində maşınlar xəttində, taqım, yaxud bölük kolonları xətlərində düzülürlər. Bu halda şəxsi heyət maşınlarda yerləşmiş, yaxud maşınların önündə bir cərgə, yaxud iki cərgə, taqım, ya da bölük kolon-

ları xəttində, onların axırıncı cərgəsi maşınlardan üç addımdan az olmayan məsafədə düzülür (şəkil 50–53); sürücü-mexaniklər və sürücülər öz bölmələrinin sıralarında dururlar.

334. Səfər sırasında bölmələrdə maşınlar kolona, yaxud bölmələr kolonlarda bir-birinin arxasında Nizamnamənin, ya da komandirin təyin etdiyi ara məsafəsində düzülürlər.




Şəkil 50. ***Manqanın və tank ekipajının düzülüşü:***




Şəkil 51. ***Taqımın şəxsi heyətinin maşınlar önündə düzülüşü: şəxsi heyət – iki cərgə sırada, maşınlar – öz xəttində***

335. Piyadanın döyüş maşınına (PDM-ə) və zirehli transportyora (ZTR-ə), eləcə də avtomobil və başqa maşınlara yerləşmədən

əvvəl, şəxsi heyət və əşyalar (material) bölmələr arasında bölüşdürülür və yerləşmə qaydası göstərilir.

336. Şəxsi heyəti maşınlara yerləşdirmədən öncə silahların boşaldılması, silahlar dolu olduqda isə, onların qoruyucuya qoyulması yoxlanır; süngü-bıçaqlar (süngülər) çıxarılır (qatlanır).

337. Hər bir maşına zabit, gizir, yaxud çavuşlardan maşınların sürücüləri də daxil olmaqla bütün şəxsi heyətin tabe olduğu maşın böyüyü təyin edilir.

338. Maşın böyüyünə maşını idarə etmək qəti qadağandır.

339. Böyük rəisin siqnallarını bölmə komandiri (maşın böyüyü), açıq zirehli maşın və avtomobillərdə, onlardan əlavə, təyin edilmiş və zirehli maşının (avtomobilin bortunun) sağ qabaq küncündə əyləşən müşahidəçilər müşahidə edirlər.

340. Avtomobilin bortlarının cəftələrinə hərəkət vaxtı diqqət yetimək üçün bortların kənarlarında irəlidə və arxada əyləşən hərbi qulluqçulardan bort nəzarətçiləri təyin edirlər.




Şəkil 52. ***Bölüyün şəxsi heyətinin maşınların önündə düzülüşü: şəxsi heyət və maşınlar taqım kolonları xəttində***

341. Arxada gələn maşınları, qoşulan texnikanı, PDM və ZTR-in arxa qapısını (avtomobilin arxa bortunun cəftəsini), sağdan arxada (avtomobilin arxa bortu yanında) əyləşən hərbi qulluqçu müşahidə edir.

342. **“Maşınların – YANINA”** komandası (siqnalı) ilə maşında, PDM-də, ZTR-də, eləcə də avtomobildə və tankda desant kimi daşınan şəxsi heyət maşınların yanında 54-cü şəkildə göstərildiyi kimi düzülür.




Şəkil 53. ***Taborun şəxsi heyətinin maşınların önündə düzülüşü: şəxsi heyət və maşınlar bölük kolonları xəttində***

343. Bortlardan minəndə bölmələrin şəxsi heyəti kolonun başı minmə lüklərinin, yaxud maşınların arxa təkərlərinin (katoklarının) yanında düzülür.

344. **“Maşınların – YANINA”** komandası (siqnalı) ilə tank ekipajları tankın qabağında bir cərgə sıraya düzülür. Tank komandiri sağ tırtılın önündə iki addımlıqda, qalan heyət isə komandirin solunda düzülür (şəkil 54 ç).




**a**
***desantın bortlardan minməsi üçün tankın yanında;***




**b**
***PDM-ə arxa qapıdan;***




**c**
***ZTR-ə minmə lükundan;***




**ç**
***avtomobilə sağ, sol və arxa bortlardan;***

Şəkil 54. ***Şəxsi heyətin minməsi üçün düzülüşü:***

345. Şəxsi heyət maşınlara aşağıdakı kimi yerləşdirilir:

345.1. piyadanın döyüş maşınlarına – arxa qapıdan;

345.2. zirehli transportyorlara – sağ və sol bortlardan, üst lüklərdan, yaxud arxa qapıdan;

345.3. avtomobillərə – sağ, sol və arxa bortlardan, üstüörtülü avtomobillərə arxa bortdan.

346. Digər maşınlara şəxsi heyət onlara rahat olan qaydada mindirilir.

347. Yolun sağ kənarında duran maşınlara sol bortdan minməyə icazə verilmir.

348. Piyadanın döyüş maşınına və zirehli transportyora minərkən **"Maşınların – YANINA"** komandası (siqnalı) ilə təyin edilmiş hərbi qulluqçular desant bölməsinin arxa qapılarını (minmə lüklərinin qapaqlarını) açırlar; lazım olduqda avtomobillərin sürücüləri arxa bortları açırlar. Yerləşmə başa çatdıqdan sonra arxa qapılar (minmə lükləri, bortlar) bağlanır.




Şəkil 55. ***Şəxsi heyətin yerləşməsi:***
***a) piyadanın döyüş maşınında; b) zirehli transportyorda***

349. **“YERLƏŞİN”** komandası (siqnalı) ilə bölmələr tez maşınlarda öz yerlərini tuturlar (şəkil 55, 56). Minərkən təkərlərdən, tırtıllardan və ayaq yerlərindən istifadə edilir.

350. Silahla minərkən silah rahat tutulur, bölük pulemyotu isə ya minmiş, yaxud arxada duran hərbi qulluqçuya ötürülür.

351. Minəndən sonra silah dizlər arasında yerə qoyulur, hər iki əllə saxlanılır. Avtomatlar, bundan başqa, bölmə komandirinin komandası ilə **“sinədə”** vəziyyətinə götürülə bilər.

352. Arxa çantaları bölmə komandirinin (maşın böyüyünün) göstərişi (komandası) ilə çıxarılır və maşında yerləşdirilir.



Şəkil 56. ***Şəxsi heyətin avtomobilin bortunda yerləşməsi:***
***a) yan oturacaqlarda; b) köndələn oturacaqlarda***

353. Bölmə komandiri (maşın böyüyü) şəxsi heyətin yerləşməsinin düzgünlüyünə diqqət yetirir, yerləşmə başa çatdıqdan sonra qapı (lük) və bortların cəftələrinin bağlanmasını yoxlayır, piyadanın döyüş maşınında və zirehli transportyorda maşın komandirinin oturacağında, avtomobildə sürücünün yanında, yaxud böyük komandirin göstərişi ilə avtomobilin bortunun sol qabaq küncündə öz yerini tutur.

354. Maşında komandirin yerini böyük komandir tutduqda, manqa, yaxud taqım komandiri maşının desant bölməsində əyləşir.

355. Tank ekipajı **“YERLƏŞİN”** komandası (siqnalı) ilə eyni vaxtda geriyə dönür və aşağıdakı qayda ilə tankda öz yerini tutur: tank komandiri doldurucuya yol verir, sol bort tərəfə qaçır və tuşlayıcıdan sonra öz yerini tutur; tuşlayıcı sol bort tərəfə qaçır, tankın üstünə qalxır və komandir qülləsi lükündən girərək öz yerini tutur; doldurucu sağ borta tərəf qaçır, cəld tankın üstünə qalxır və doldurucu lükündən girərək öz yerini tutur; sürücü-mexanik tankın qabaq hissəsinə qalxır və sürücü-mexanik lükündən girərək öz yerini tutur.

356. Başqa sayda heyəti olan tank ekipajları tankda ekipajların yerləşməsini və lüklərin yerini nəzərə alaraq öz yerlərini izah edilən qaydaya uyğun tuturlar.

357. Yerində tanka desant bortlardan mindirilir. Desantı bortlardan mindirmək mümkün olmadıqda, onlar tankın arxa tərəfindən mindirilir. Bu halda silahı rahat olan üsul ilə tuturlar, bölük pulemyotu isə ya minmiş hərbi qulluqçuya, ya da arxadakılara ötürülür.

358. Tankın üstündə hərbi qulluqçular təhlükəsizlik tədbirlərinə riayət edilməklə yerləşdirilirlər.

359. Desant kimi aparılan bölmənin komandiri şəxsi heyətin tanka mindirilməsi və yerləşdirilməsi qaydalarını yerinə yetirməkdə tank bölməsi komandirinin göstərişlərini yerinə yetirir və minmənin başa çatması haqqında ona, eləcə də özünün bilavasitə rəisinə məruzə edir.

360. Bölmənin (hissənin) hərəkətə başlamasından əvvəl **“İŞƏ SAL”** komandası (siqnalı) verilir. Bu komanda (siqnal) ilə maşınların mühərrikləri işə salınır və qızdırılır.

361. **“İRƏLİ”** komandası (siqnalı) ilə bütün maşınlar eyni vaxtda durduqları sırada hərəkətə başlayır, yaxud komandirin komandası (siqnalı) ilə göstərilmiş intervalları və məsafələri götürməklə yenidən düzülür. Yerində duran zaman kolonda maşınlar

arasında məsafə ***10 m***-dən az olduqda, maşınlar təyin edilmiş məsafəni götürür və növbə ilə hərəkətə başlayırlar.

362. Hərəkət qaydası və sürətini, eləcə də istirahət üçün dayanma yerlərini müəyyən edərkən döyüş nizamnamələrinin tələbləri rəhbər tutulur.

363. Maşınlar arasındakı məsafə hərəkətin sürətindən və şəraitdən asılı olaraq orta hesabla **25–50m** ola bilər.

364. Məsafələri dəyişmək üçün **“MƏSAFƏNİ ARTIR”, “MƏSAFƏNİ AZALT”** komandaları (siqnalları) verilir.

365. Hərəkətdə dönmələr öndəki maşının arxasınca gedərək ardıcıl, yaxud bütün maşınlarla (bölmələrlə) eyni zamanda yerinə yetirilir.

366. Ardıcıllıqla geriyə dönmək üçün verilən **“DİQQƏT, MƏNİM KİMİ ET”** komandası (siqnalı) ilə öndə gedən maşın azaldılmış sürətlə geriyə (çevrənin 1/2-i qədər) dönür və əks istiqamətdə hərəkəti davam etdirir. Digər maşınlar öndə gedən maşının döndüyü yerə çatdıqda geriyə dönürlər və hərəkəti davam etdirirlər.

367. Eyni vaxtda sağa (sola, geriyə), dönmək üçün **“HAMI SAĞA** (SOLA, GERİYƏ)” komandası verilir. **“HAMI SAĞA** (SOLA)” komandası ilə maşınlar hərəkətdə eyni vaxtda göstərilən tərəfə dönür və yeni istiqamətdə hərəkəti davam etdirirlər. **“HAMI GERİYƏ”** komandası (siqnalı) ilə hər bir maşın dayanır, məsafəni azaltmadan sol tərəflə geriyə (çevrənin 1/2-i qədər) dönür və əks istiqamətdə hərəkəti davam etdirir.

368. Hərəkət vaxtı kolonun yolu boşaltması üçün **“SAĞA GÖTÜR”** komandası (siqnalı) verilir. Bu komanda (siqnal) ilə kolonun bütün maşınları eyni zamanda yolun işlək hissəsindən kənara çıxırlar və hərəkət yolun sağ kənarı ilə, yaxud yoldan sağda davam etdirilir.

369. Maşınların dayanması **“DUR”** komandası ilə yerinə yetirilir. Bu komanda ilə maşınlar növbə ilə irəlidə dayanan maşına qədər 10 m-dən az olmayan, yaxud komandirin göstərdiyi qədər məsafə saxlayıb dayanırlar.

370. Kolonun dayanmasından əvvəl maşınlar yolun sağ kənarına, yaxud yoldan sağa çıxarılırlar. Dörd yol qovşaqları, yol ayrıcları, körpülər, dar keçidlər, dəmiryol keçidləri, darvazalar və həyətlərə girişlər məsafə pozulduqda belə, həmişə açıq qalmalıdır. Dayandıqdan sonra **"MÜHƏRRİKLƏRİ SÖNDÜR"** komandası (siqnalı) verilə bilər.

371**.** Şəxsi heyət maşınlardan aşağıdakı kimi düşürülür:

371.1. piyadanın döyüş maşınlarından – lüklərdən və arxa qapıdan;

371.2. zirehli transportyorlardan – sağ və sol bortlardan, üst lüklərdən, yaxud arxa qapıdan;

371.3. avtomobillərdən – sağ, sol və arxa bortlardan, bortları örtülü maşınlardan – arxa bortdan.

372. Başqa maşınların düşürülmə rahat şəkildə yerinə yetirilir.

373. Yolun sağ kənarında duran maşınların sol bortundan düşməyə icazə verilmir.

374.Maşınlardan düşmək üçün **"MAŞINLARIN YANINA"** komandası (siqnalı), yaxud, məsələn, **"Manqa** (taqım, bölük), **sağ və sol bortlar və arxa qapı** (arxa bort) **ilə – MAŞINLARIN YANINA"** komandası verilir.

375. Bu komanda (siqnal) ilə şəxsi heyət maşınlardan tez düşür və onların yanında düzülür (şəkil 54), yaxud öz komandirlərinin komandası (sərəncamı) ilə hərəkət edir.

376. Düşmə vaxtı silah rahat tutulur, bölük pulemyotları düşmüş hərbi qulluqçulara ötürülür.

## Taqımın sıraları

377. **Taqımın açıq sırası maşınlar xəttidir** (şəkil 57).

378. Maşınlar arasındakı interval 3 m-dir.

379. Taqımın açıq sıraya düzülməsi **"Maşınlar xəttinə – MARŞ"** komandası (siqnalı) ilə yerinə yetirilir.

380. Taqım komandiri öz maşınının qabaq hissəsini taqım düzülüşünün önünə tərəf yönəldərək saxla komandasını verdiyi hal-

da, qalan maşınlar müəyyən edilmiş intervalı gözləyərək nömrələri ilə taqım komandiri maşınından sola bir xətt üzrə düzülürlər.




Şəkil 57. ***Taqımın açıq sırası: maşınlar xətti***




Şəkil 58. ***Taqımın səfər sırası: kolon***

381. **Taqımın səfər sırası kolondur** (şəkil 58).

382. Maşınlar arasında distansiya yerində düzülərkən və dayanacaqlarda 10 m, hərəkətdə 25–50 m-dir. Taqım komandirinin maşını kolonun önündə olur.

383. Taqımın kolona və onun maşınlar xəttindən kolona yenidən düzülməsi **“Kolona – MARŞ”** komandası (siqnalları) ilə yerinə yetirilir.

384. Taqımı maşınlar xəttindən kolona yenidən düzərkən qalan maşınlar taqım komandiri maşınının arxasınca nömrələri ilə müəyyən edilmiş distansiyaya çıxırlar (şəkil 59).

385. Taqımın kolondan açıq sıraya maşınlar xəttinə (şəkil 60) yenidən düzülüşü 382-ci maddədə göstərildiyi kimi yerinə yetirilir.




Şəkil 59. ***Taqımın maşınlar xəttindən kolona yenidən düzülməsi***




Şəkil 60. ***Taqımın kolondan maşınlar xəttinə yenidən düzülməsi***

## Bölüyün sıraları

386. Bölüyün açıq sırası maşınlar xətti (şəkil 61), yaxud taqım kolonları xətti (şəkil 62) ola bilər. Taqımlar arasındakı interval 5 m-dir.

387. Bölüyün açıq sıraya – maşınlar xəttinə, yaxud taqım kolonları xəttinə yenidən düzülməsi **“Maşınlar xəttinə** (taqım kolonları xəttinə) **– MARŞ”** komandası (siqnalları) ilə yerinə yetirilir.

388. Bölük komandiri komandanı (siqnalları) verdikdən sonra öz maşınının qabaq hissəsini bölük düzülüşünün önünə yönəldərək saxlayır, yaxud birinci taqımın düzülüş yerini göstərir. Taqımlar müəyyən edilmiş intervallar və məsafələri gözləyərək nömrələri ilə bölük komandirinin maşınından sola – maşınlar (kolonlar) xəttinə düzülürlər.




Şəkil 61. ***Bölüyün açıq sırası - maşınlar xətti***




Şəkil 62. ***Bölüyün açıq sırası - taqım kolonları xətti***

389. **Bölüyün səfər sırası kolondur** (şəkil 63).

390. Bölüyün kolona, yaxud onun açıq sıradan kolona yenidən düzülməsi **"Kolona – MARŞ"** komandası (siqnalı) ilə yerinə yetirilir.

391. Bölüyü açıq sıradan kolona yenidən düzərkən bölük komandirinin maşını, yaxud birinci taqımın öndə duran maşını düzünə hərəkətə başlayır, sonra göstərilmiş istiqamətə çıxır; bölük komandirinin maşınının, yaxud birinci taqımın öndə gedən maşınının arxasınca digər taqımlar nömrələri ilə, yaxud bölük komandirinin göstərdiyi qaydada təyin edilmiş məsafələrlə çıxırlar.

392. Bölüyün kolondan açıq sıraya – maşınlar xəttinə, yaxud taqım kolonları xəttinə yenidən düzülüşü 387-ci maddədə göstərilmiş komandalar və qaydalarla yerinə yetirilir. Bu halda taqımlar kolonlarla bölük kolonundan çıxır və taqım komandirinin **"Maşınlar xəttinə – MARŞ"**, yaxud **"Kolona – MARŞ"** komandası (siqnalları) ilə 61 və 62-ci şəkillərdə göstərildiyinə müvafiq olaraq maşınlar xəttinə, yaxud taqım kolonları xəttinə düzülürlər.




Şəkil 63. ***Bölüyün səfər sırası - kolon***

## Taborun sıraları

393. Taborun açıq sırası taqım, yaxud bölük kolonları xətti ola bilər. Lazım olduqda tabor maşınlar xəttinə düzülə bilər.

394. Taborun açıq sıraya düzülməsi tabor komandirinin əmri, yaxud **"Taqım** (bölük) **kolonları xəttinə** (maşınlar xəttinə) **– MARŞ"** komandası (siqnalları) ilə yerinə yetirilir.

395. Tabor taqım kolonları xəttinə 64-cü şəkildə göstərildiyi kimi düzülür, bölüklər taqım kolonları xəttində olurlar.

396. Tabor bölük kolonları xəttinə 65-ci şəkildə göstərildiyi kimi düzülür; bölüklər kolonlarda olurlar.

397. Tabor maşınlar xəttinə 66-cı şəkildə göstərildiyi kimi düzülür; bölüklər maşınlar xətlərində olurlar, bölüklər arasındakı interval 5 m-dir.

398. Tabor düzülərkən tabor komandirinin maşını və idarə bölməsi sağ cinahda, artilleriya, xüsusi və maddi-texniki təminat bölmələri müvafiq olaraq taqım, yaxud bölük (batareya) kolonlarında taborun sol cinahında düzülürlər.

399. **Taborun səfər sırası kolondur** (şəkil 67).

400. Taboru sərbəst sırasına düzərkən bölüklər, artilleriya, xüsusi və maddi-texniki təminat bölmələrinin hər biri öz kolonunda tabor komandirinin göstərdiyi qaydada düzülürlər; yerində düzülüşlərdə və dayanmalarda bölüklər arasında distansiya 10 m, hərəkətdə 25–50 m-dir.

401. Taborun sərbəst sırasına düzülməsi tabor komandirinin əmri, yaxud **"Kolona – MARŞ"** komandası (siqnalları) ilə yerinə yetirilir.

402. Taborun açıq sıradan kolona yenidən düzülməsi **"Kolona – MARŞ"** komandası (siqnalları) ilə yerinə yetirilir.

403. Bu komanda ilə tabor komandirinin maşını düzünə hərəkətə başlayır və lazım olan istiqamətə çıxır; taborun bölmələri 67-ci şəkildə göstərildiyi kimi, yaxud tabor komandirinin göstərdiyi qaydada təyin edilmiş məsafəni gözləyərək tabor komandirinin maşınının arxasınca hərəkət edirlər.

404. Taborun kolondan açıq sıraya yenidən düzülməsi **"Taqım** (bölük) **kolonları xəttinə – MARŞ"** komandası ilə yerinə yetirilir. Bu komanda ilə bölmələr 64 və 65-ci şəkillərdə göstərildiyi kimi düzülürlər.




Şəkil 64. ***Taborun açıq sırası: taqım kolonları xətti***




Şəkil 65. ***Taborun açıq sırası - bölük kolonları xətti***




Şəkil 66. ***Taborun açıq sırası - maşınlar xətti***




Şəkil 67. ***Taborun səfər sırası – kolon***

## Briqadanın sıraları

405. **Briqadanın açıq sırası taqım,** yaxud **bölük kolonları xəttinə** düzülmüş taborlardan ibarətdir.

406. Taborlardan solda briqadanın artilleriya, hava hücumundan müdafiə, xüsusi və maddi-texniki təminat bölmələri düzülürlər. Taborlar arasındakı interval 10 m, briqadanın başqa bölmələri

arasında 5 m olur, yaxud düzülüşün şəraitindən asılı olaraq komandir tərəfindən təyin edilir.

407. **Briqadanın səfər sırası kolondur.** Briqada səfər kolonuna 323-cü maddədə göstərilən qaydada düzülür.

408. **Briqadanın** açıq sıradan kolona yenidən düzülüşü briqada komandirinin əmri ilə yerinə yetirilir. Əmrdə hərəkətin istiqaməti və qaydası, hərəkətə hazırolma vaxtı və taborlar arasındakı məsafə göstərilir.

409. Səfər sırasında hərəkət **"Kolona – MARŞ"** komandası (siqnalları) ilə başlanır.

410. Tabor komandirləri ardıcıllıqla taborların hərəkəti üçün komandalar (siqnallar) verirlər.

## Əsgəri salamlaşma

411. Üstü açıq maşınlarda yerində və hərəkətdə **"FARAĞAT"** komandası ilə əsgəri salamlaşma üçün şəxsi heyət belini əymədən oturmalı, başını düz tutaraq qabağa baxmalıdır; silahsız olduqda yarımbükülü əllərini sərbəst dizdən bir az yuxarıya qoymalı; silahla olduqda isə silahı dizləri arasında saxlayaraq hər iki əli ilə tutmalıdır (şəkil 56).

412. **"Diqqət sağa (sola)"** komandası ilə taqımdan yuxarı bölmə komandirləri və maşın böyükləri başlarını rəisə tərəf döndərir və əsgəri salam verirlər; digər hərbi qulluqçular **"farağat"** vəziyyətində qalır və başlarını rəisə tərəf çevirmirlər.

413. Hərbi qulluqçuların maşında üzləri hərəkət istiqamətinə tərəf oturduqda, **"Diqqət, sağa** (sola)**"** komandası ilə onlar eyni vaxtda başlarını rəisə tərəf çevirirlər.

414. Maşın rəisin yanından keçəndən sonra **"AZAD"** komandası ilə bütün hərbi qulluqçular başlarını qabağa çevirir və sərbəst otururlar. Bölmə komandirləri və maşın böyükləri, bundan əlavə, sağ əllərini aşağı salırlar.

415. Maşınlarda olan tək-tək hərbi qulluqçular oturduqları yerdə bellərini bükmədən başlarını rəisə tərəf çevirərək əsgəri salam verirlər.

416. Hərbi qulluqçular silahsız olduqda, başlarını çevirməklə eyni vaxtda əsgəri salam verirlər; silahları olduğu halda, onlar silahı 411-414-cü maddələrdə göstərildiyi kimi tuturlar.

417. Sürücü-mexaniklər və sürücülər maşını idarə edərkən əsgəri salam vermirlər.

## 8-ci fəsil. BÖLÜK, TABOR VƏ BRİQADANIN SIRA BAXIŞI

### 1. Ümumi müddəalar

418. Sıra baxışı hərbi qulluqçuların fərdi sıra vərdişləri və bölmələrin sıra uzlaşması dərəcəsini müəyyən etmək məqsədilə keçirilir. Sıra baxışı zamanı hərbi qulluqçuların xarici görünüşləri, ləvazimatın, silahın, döyüş və digər texnikanın varlığı və vəziyyəti yoxlanılır. Bundan əlavə, inspeksiya yoxlaması vaxtı sıra baxışında Daxili Xidmət Nizamnaməsində göstərildiyi qaydada hərbi qulluqçularla sorğu keçirilir. Hərbi qulluqçuların sorğusu adi yoxlamalar zamanı da keçirilə bilər.

419. Hər bir sıra baxışı bölmənin (hərbi hissənin) təntənəli marşla keçidi ilə başa çatır.

420. Sıra baxışı birbaşa rəislər, yaxud inspeksiya yoxlamasına (yoxlamaya) rəhbər təyin edilmiş şəxslər tərəfindən keçirilir.

421. Baxış keçirən şəxs, baxış günündən əvvəl bölmə (hərbi hissə) komandirinə baxışın yerini, vaxtını, düzülüş və keçirilmə qaydasını, geyim formasını, silah, döyüş və digər texnikanın çıxarılmasını bildirməlidir.

422. Bölük, tabor və briqadanın sıra baxışı piyada sırada, yaxud maşınlarda keçirilir.

423. Piyada sırada baxışa bölmənin (hərbi hissənin) bütün şəxsi heyəti şəxsi silahları ilə, maşınlarda keçirilən baxışa isə bundan əlavə, bütün silahlar, döyüş və digər texnika çıxarılır.

## 2. Piyada düzülüşdə sıra baxışı

### Bölüyün baxışı

424. Sıra baxışı üçün bölük iki cərgə açıq sıraya düzülür; bölük komandiri sıra ortasının önündə yeddi addımlıqda, bölük bayraqcığını daşıyan idarə qrupundan dörd addım, şeypurçu-təbilçi isə iki addım sağda, bölüyün baş çavuşu bölüyün sol cinahında dururlar (şəkil 40).

425. Baxış keçirən rəis 40-50 addımlığa yaxınlaşdıqda bölük komandiri **"Bölük – FARAĞAT, diqqət – SAĞA** (SOLA, MƏRKƏZƏ)**"** komandası verir. Bu komanda ilə 300-301-ci maddədə göstərilənlər yerinə yetirilir.

426. Bölük komandiri komanda ilə eyni vaxtda əsgəri salam verir, sıra addımları ilə baxış keçirən rəisə yaxınlaşır, onun iki-üç addımlığında dayanır və raport verir, məsələn: **"Cənab polkovnik-leytenant. Üçüncü bölük sıra baxışı üçün düzülüb. Bölük komandiri kapitan Muradlı"**.

427. Raportdan sonra bölük komandiri sol (sağ) ayaqla yana bir addım atır, eyni zamanda sağa (sola) dönür və rəisi irəli buraxaraq, onun arxasınca bir-iki addımlıqda sıranın bayır tərəfi ilə əlini aşağı salmadan hərəkət edir.

428. Təbilçi bölük komandirinin **"Diqqət – SAĞA** (SOLA, MƏRKƏZƏ)" komandasında "Səfər marşı" ifa etməyə başlayır (Əlavə 4); bölük komandiri baxış keçirən rəisin qarşısında dayandıqda təbilçi ifanı saxlayır, bölük komandirinin raportu başa çatdıqdan dərhal sonra təbilçi yenidən ifa etməyə başlayır.

429. Baxış keçirən rəis sıranın önü ilə sağ cinahdan sol cinaha qədər keçdikdən sonra sıranın ortasında dayandıqda təbilçi ifanı dayandırır, rəis bölüyün şəxsi heyətini salamlayır, **"AZAD"** ko-

mandası verməyə icazə verir və baxışın davam etdirilməsi haqqında bölük komandirinə lazımi göstərişlər verir.

430. Bölük komandiri **“AZAD”** komandası verməklə, sağ əlini aşağı salır, baxış keçirən rəisə sıra vərəqəsini təqdim edir (Əlavə 1), ondan göstərişlər aldıqdan sonra tapşırıqları yerinə yetirməyə başlayır.

431. Bölüyün baxışı şəxsi heyətin yerində olması, onların xarici görünüşünün, ləvazimatın və silahın vəziyyətinin yoxlaması ilə başlanır; sonra şəxsi hərbi qulluqçuların fərdi sıra vərdişi, manqalar, taqımlar və bölüyün sıra uzlaşması, taqım və bölük heyəti ilə sıra mahnılarının ifa bacarığı yoxlanır.

432. Bölük baxış keçirən rəisin qarşısından taqımlarla bir (iki) cızıqdar məsafəsində təntənəli marşla keçir; taqımlar üç (iki) kolonda, silahlar “qayışda” vəziyyətində, yaxud baxış keçirən rəisin göstərişinə əsasən olmalıdır. Silahlar “sinədə” vəziyyətində sol əllə lülə yatağı və lülə örtüyündən tutularaq saxlanır.

433. Təntənəli marşla keçiddən əvvəl baxışda iştirak edən bölük komandirinin birbaşa rəisləri baxış keçirən rəisdən bir-iki addım geridə və sağda dururlar.

434. Bölük komandiri bölüyü taqım kolonları xəttinə yenidən düzür (yaxud düzür), bölüyün keçmə xəttini işarə etmək üçün təyin edilmiş cızıqdarları bir kolonda bölüyün sağ cinahına qoyur, özü öndə gedən taqımın (idarə qrupunun) önündə yeddi addımlıqda üzü sıraya tərəf duraraq **“Bölük, FARAĞAT”., Təntənəli marşla”., “Taqımlarla”.,** “**Məsafə bir** (iki) **cızıqdar”., “Birinci taqım** (idarə qrupu) **DÜZ, qalanlar sağa – DÖN”., “Qayışa – AL”** (“Avtomatları sinəyə – AL”); **“Diqqət sağa, addımla – MARŞ”** komandaları verir. Sonra sağ pəncəsi üzərində tez sola tərəf geriyə dönərək bölüklə birlikdə sol ayaqla hərəkətə başlayır.

435. **“Təntənəli marşla”** komandası ilə aşağıdakılar sıradan çıxaraq yerlərində dururlar: bölük komandirinin arxasında ikiaddımlıqda bayraqcığı daşıyan, sonra şeypurçu-təbilçi, öz taqımlarının önündə ikiaddımlıqda taqım komandirləri, idarə qrupunun önündə ikiaddımlıqda bölüyün baş çavuşu (baş texnik) (şəkil 43);

cızıqdarlar qaçaraq, yaxud tez-tez sıra addımlarla bölüyün keçmə xəttinə çıxır, biri o birindən 10–15 m (15–20 addım) məsafədə sərbəst dayanır və sola dönürlər. “**Addımla – MARŞ**” komandası ilə onlar eyni vaxtda avtomatları “sinədə” vəziyyətinə, karabinləri “qarovul” vəziyyətinə götürürlər.

436. İcra komandası ilə bütün bölük hərəkətə başlayır: birinci taqım (idarə qrupu) sıra addımları ilə düz gedir, hər bir sonrakı taqım ardıcıllıqla birinci taqımın yerinə çatdıqda sola dönüb yerində addımlayaraq düzlənir. Öndə gedən taqım komandada göstərilən məsafə qədər aralandıqda, sonrakı taqım komandiri **“DÜZÜNƏ”** komandası verir. Bu komanda ilə taqım sıra addımı ilə hərəkətə başlayır.

437. Taqımların sağ cinahında hərəkət edənlər cızıqdarların işarə etdikləri xətt boyunca cızıqdarlardan bir addım aralı hərəkət edirlər.

438. Bölük karabinlər “əldə” vəziyyətində keçərkən süngüləri çiyindən sağa boyun səviyyəsində, ikinci və sonrakı cərgələrin süngüləri öndə gedən cərgələrin çiyinlərinin sağ tərəfində olmalıdır. Karabinlər taqım komandirinin komandası (siqnalı) ilə baxış keçirən rəisə üç-dörd cızıqdar qalmış “əldə” vəziyyətinə alınır.

439. Bölük komandiri, taqım komandirləri və bölüyün baş çavuşu (baş texniki) baxış keçirən rəisə bir cızıqdar qalmış əsgəri salam verir, başlarını baxış keçirən rəisə tərəf döndərirlər.

440. Rəisin yanından dörd addım keçən kimi bölük komandiri sıradan yana çıxır, özünün birbaşa rəislərindən sağda durur və bölüyün tamam keçməsinə qədər yerində qalır.

441. Taqım komandiri əsgəri salam verdikdə, taqımın bütün şəxsi heyəti eyni vaxtda başlarını rəisə tərəf döndərirlər. Taqım baxış keçirən rəisdən bir cızıqdar keçdikdən sonra taqım komandiri sağ əlini aşağı salır, bütün şəxsi heyət başlarını qabağa döndərirlər.

442. Bölük karabinlər “əldə” vəziyyətində keçdikdə, onlar taqım komandirlərinin komandası (siqnalı) ilə “çiyində” vəziyyətinə götürülür.

443. Bölük, baxış keçirən rəisi keçdikdən sonra cızıqdarlar onların böyüyünün işarəsi ilə karabinləri “qayışda” vəziyyətinə götürür, sağa dönürlər, bir kolonda qaçaraq bölüyə çatır və öz bölmələrinin sırasında dururlar.

## Taborun baxışı

444. Sıra baxışı üçün tabor taqım kolonları xətti sırasında, yaxud iki cərgə açıq sıraya düzülür (şəkil 44, 46); tabor komandiri taborun ortasının önündə on addımlıqda, taborun bütün təbilçiləri taborun sağ cinahında bir cərgədə qabaqdakı bölük komandirindən iki addım sağda, tabor komandirinin müavinləri və taborun qərargah rəisi təbilçilərdən iki addım sağda dururlar. Taborda orkestr olduqda, təbilçilər cinaha çağırılmır, orkestr öndə gedən bölüyün komandirindən iki addım sağda durur. Tabor bayraqcığı çıxarıldıqda, onu daşıyan komandir müavinlərindən iki addım sağda durur.

445. Rəisin qarşılanması bölük üçün göstərildiyi qaydada aparılır. Rəisin əsgəri salamına cavab verdikdən sonra tabor komandirinin **“AZAD”** komandası ilə bölük komandirləri sıradan çıxır və öz bölükləri sırasının ortasının beş addımlığında dururlar.

446. Tabor, baxış keçirən rəisin önündən bölüklərlə bir (iki) cızıqdar məsafəsində, bölüklər üç (dörd) kolonlarla keçir.

447. Təntənəli marşla keçməzdən əvvəl tabor komandiri taboru göstərildiyi kimi yenidən düzür (yaxud düzür), bir cərgə düzülən cızıqdarları taborun sağ cinahında qoyur, özü isə öndə gedən bölüyün (taborun idarə heyətinin) önündə 15 addımlıqda durur və komanda verir: **“Tabor, FARAĞAT”., Təntənəli marşla”., “Bölüklərlə”.,** “**Məsafə bir** (iki) **cızıqdar”., Birinci bölük** (taborun idarə heyəti) **düz, qalanlar sağa – DÖN”., “Qayışa – AL”** (“Avtomatları sinəyə – AL”); **“Diqqət sağa, addımla – MARŞ”.**

448. **“Təntənəli marşla”** komandası ilə sıradan qısa yolla çıxır və dururlar: tabor komandirinin müavinləri və taborun qərargah rəisi tabor bayraqcığı daşıyanın arxasında iki addımlıqda bir cərgədə, bölük komandirləri öz bölüklərinin önündə dörd addımlıqda, taqım ko-

mandirləri öz taqımlarının önündə iki addımlıqda, bölük təbilçiləri böyük təbilçinin komandası ilə irəli çıxır, üzləri taborun keçmə xəttinə tərəf taborun ilk vəziyyətinə bir qədər yaxın baxış keçirən rəisin qarşısında dururlar. Taborda orkestr olduqda, o bu komanda ilə təbilçilər üçün göstərilən yerdə durur.

449. Taborun sonuncu bölməsi baxış keçirən rəisin yanından keçəndən sonra təbilçilər (orkestr) ifanı dayandırmadan böyük təbilçinin (hərbi dirijorun) komandası (siqnalı) ilə düzünə hərəkətə başlayır, təntənəli marşla keçmə xəttinə çıxır, böyük təbilçinin (hərbi dirijorun) arxasınca sola dönür (dolanır) və sıra addımları ilə rəisin yanından keçirlər; rəisdən bir-iki cızıqdar keçdikdən sonra ifanı dayandırırlar.

450. Taborun yoxlanması, cızıqdarların çıxması, eləcə də təntənəli marşla keçmə bölük üçün göstərildiyi kimi yerinə yetirilir.

## Briqadanın baxışı

451. Briqadanın sıra baxışını keçirmək üçün hərbi hissə Döyüş Bayrağı ilə bölük, yaxud taqım kolonları xəttinə 48-ci şəkildə göstərildiyi kimi düzülür; briqada komandiri briqadanın sırasının ortası önündə 20–30 addımlıqda durur. Orkestr olmadıqda bölük təbilçiləri böyük təbilçinin komandası altında orkestr üçün göstərilmiş yerdə düzülürlər.

452. Briqada birlik tərkibində təqdim edildikdə briqada komandiri briqadanın sağ cinahında durur. Rəisin qarşılanması və əsgəri salamlaşma bölük və tabor üçün göstərildiyi kimi keçirilir; raport verərkən briqadanın ona verilmiş fəxri ad və ordenləri sadalanmaqla tam adı deyilir. Əsgəri salamlaşmadan sonra briqada komandirinin **“AZAD”** komandası ilə tabor komandirləri sıradan çıxaraq öz taborları sırasının ortasının 10 addımlığında, əlahiddə bölük (batareya) komandirləri 5 addımlıqda dururlar.

453. Briqada, baxış keçirən rəisin önündən təntənəli marşla taborlarla, yaxud bölüklərlə keçir.

454. Briqadanın keçmə qaydası: öndə briqada komandiri; onun arxasında üç addımlıqda bir cərgədə briqada komandirinin müavinləri və qərargah rəisi; onların arxasında iki addımlıqda bayraqdar assistentləri ilə; onların arxasında üç addımlıqda briqadanın idarə heyəti üç kolonda və sonra müəyyən edilmiş məsafələrdə briqadanın bölmələri hərəkət edirlər.

455. Briqadanın təntənəli marşla keçməsi üçün briqada komandiri briqadanın cinahında gedən bölüyün (taborun, briqadanın, hərbi hissənin) önündə 20 addımlıqda durur və komanda verir: **"Briqada – FARAĞAT. Təntənəli marşla"., "Bölüklərlə". (taborlarla), "Məsafə bir (iki) cızıqdar"., Birinci bölük (tabor, briqada idarəsi) düz, qalanlar sağa – DÖN"., "Qayışa – AL"** ("Avtomatları sinəyə – AL"); **"Diqqət sağa, addımla – MARŞ".**

456. "Təntənəli marşla" komandası ilə briqada komandirinin müavinləri və qərargah rəisi sıradan çıxır, Döyüş Bayrağından iki addım qabaqda, tabor, bölük, taqım komandirləri və orkestr (təbilçilər) sıradan çıxır, 433-448-ci maddələrdə göstərildiyi kimi dururlar.

457. "Marş" komandası ilə orkestr marş ifa etməyə başlayır (təbilçilər "Səfər marşı" ifa edirlər), öndə gedən bölük (tabor, hərbi hissənin idarə heyəti) sıra addımları ilə düzünə hərəkət edir. Digər bölmələr sağa dönür, öndə gedən bölüyün durduğu yerə qədər irəliləyir, sola dönürlər (dolanırlar), komandirlərinin **"YERİNDƏ"** komandası ilə düzülürlər, təyin edilmiş məsafəni götürərək **"DÜZÜNƏ"** komandası ilə öndə gedən bölmənin arxasınca gedirlər. Bayraqdar və assistentlər təntənəli marşla keçərkən başlarını rəisə tərəf döndərmirlər.

458. Briqadanın sonucu bölməsi baxış keçirən rəisin yanından keçdikdən sonra orkestr (təbilçilər) hərbi dirijorun (böyük təbilçinin) komandası (siqnalı) ilə ifanı dayandırmadan onun arxasınca hərəkət edir, təntənəli marşla keçmə xəttinə çatdıqda sola dönür (dolanır) və sıra addımları ilə rəisin yanından keçirlər, rəisin yanından bir-iki cızıqdar keçib ifanı dayandırırlar.

459. Briqadanın yoxlanması, cızıqdarların çıxmaları və təntənəli marşla keçməsi tabor üçün göstərildiyi kimi aparılır.

## 3. Maşınlarda sıra baxışı

460. Maşınlarda sıra baxışı üçün bölük, tabor və briqadanın şəxsi heyəti maşınların önündə açıq sıraya düzülür:

460.1. bölük – maşınlar xəttində; şəxsi heyət – iki cərgə sırada;

460.2. tabor – maşınlar və şəxsi heyət – taqım, yaxud bölük kolonları xəttində;

460.3. briqada – maşınlar və şəxsi heyət – bölük, yaxud taqım kolonları xəttində.

461. Şəxsi heyətin sıra baxışı piyada düzülüşdə sıra baxışına müvafiq olaraq keçirilir.

462. Silahın, döyüş və digər texnikanın yerində olması və vəziyyəti, eləcə də şəxsi heyətin maşınlarda fəaliyyət göstərməsinə hazırlığı baxış keçirən rəisin göstərdiyi qaydada aparılır. Maşınların təntənəli marşla keçmə qaydasını da o müəyyən edir.

463. Maşınlarda təntənəli marş bölük, yaxud tabor səfər kolonlarında aparılır. Briqada iki və çox kolonlarla da keçə bilər.

464. Baxışı keçirilən bölük, tabor və briqada komandirlərinin maşınlarından başqa, döyüş və başqa maşınların lükləri (pəncərə şüşələri) örtülü olmalıdır. Bundan başqa, təntənəli marşla hərəkət vaxtı lükdə olmalarına icazə verilmiş bölmə komandirlərinin maşınlarının lükləri də açıq olmalıdır.

465. Baxış keçirən rəisin icazəsi ilə başqa maşınların lük və kabinə pəncərələrinin şüşələri açıq ola bilər.

466. Təntənəli marşla hərəkət edərkən maşının komandir lükündə (desant bölməsi bortunun qabaq tərəfinin sağ küncündə) bölük baxışında bölük komandiri, taqım komandirləri, maşın böyükləri; tabor baxışında tabor komandiri, bölük və taqım komandirləri; briqada baxışında briqada komandiri, tabor və bölük komandirləri ayaq üstündə durmalıdırlar.

467. Avtomobillərdə hərəkət zamanı bölmə və briqada komandirləri sürücülərin yanında otura bilərlər.

468. Təntənəli marşla hərəkət **“Kolona – MARŞ”** komandası (siqnalları) ilə başlayır. Bütün maşınlar hərəkətə eyni vaxtda durduqları sıra ilə başlayır, yaxud hərəkətdə yenidən düzülərək lazımi interval və məsafə götürüb irəliləyirlər. Maşınlar arasında məsafə 10 m-dən az olduqda, maşınlar məsafə, iki və çox kolonlarla keçdikdə isə interval götürür  növbə ilə irəliləməyə başlayırlar.

469. Baxış keçirən rəisə iki-üç cızıqdar qalmış maşınların komandir lükündə (desant bölməsi kuzovunun sağ irəli küncündə, kabinədə) olan komandirlər əsgəri salam verir və eyni vaxtda başlarını rəisə tərəf çevirirlər. Qalan hərbi qulluqçular 411-414-cü maddələrdə göstərildiyi kimi hərəkət edirlər. Avtomat "sinədə" vəziyyətində olduqda onu sol əllə lülə yatağı və lülə örtüyündən tuturlar. Baxış keçirən rəisdən bir cızıqdar ötəndən sonra bölmə və hissə komandirləri sağ əllərini aşağı salır, başlarını qabağa döndərir, qalan hərbi qulluqçular “azad” vəziyyətini alırlar.

470. Təntənəli marşla keçməzdən əvvəl briqadanın Döyüş Bayrağı açılmış şəkildə briqada komandirinin maşınının üst lükündə (desant bölməsində, kuzovunda) bərkidilir. Bayraqdar və assistentlər keçmə vaxtı **“farağat”** vəziyyətində qalır və başlarını rəisə tərəf döndərmirlər. Avtomatla silahlanmış assistentlər avtomatları “sinədə” vəziyyətində aparır və sol əlləri ilə onu lülə yatağı və lülə örtüyündən tuturlar.

## 9-cu fəsil. BRİQADANIN (HƏRBİ HİSSƏNİN) DÖYÜŞ BAYRAĞININ SIRADA VƏZİYYƏTİ, ONUN ÇIXARILMASI VƏ APARILMASI



Şəkil 68. ***Döyüş bayrağının sıra duruşunda vəziyyəti***

471. Briqada (hərbi hissə) üzrə əmrlə orden və medallarla təltif olunmuş və döyüş hazırlığı əlaçılarından olan çavuş, gizir, yaxud zabitlərdən Döyüş Bayrağına bayraqdar və 2 assistent təyin edilir.

472. Bundan əlavə, Döyüş Bayrağını briqadanın (hərbi hissənin) önünə çıxardıqda və saxlanma yerinə qaytardıqda onu müşayiət etmək üçün əmrlə bayraq taqımı təyin edilir. Bayraq taqımı Döyüş Bayrağını saxlanma yerinə apardıqda bayraqdar, assistentlər və təbilçi onunla olmalıdır.

473. Döyüş Bayrağını apararkən bayraqdar və assistentlərin aşırma qayışları olmalıdır (Əlavə 2).

474. Döyüş Bayrağı briqadanın (hərbi hissənin) önünə həmişə açıq vəziyyətdə çıxarılır. Uzaq məsafəyə gedərkən Döyüş Bayrağı çexolda aparılır.

### Döyüş Bayrağının sırada vəziyyəti

475. Yerində sırada bayraqdar Döyüş Bayrağını sərbəst sallanmış sağ əli ilə ayağının yanında tutur. Bayraq dəstəyinin aşağı ucu sağ ayaq pəncəsinin ortasının yanında olmalıdır (şəkil 68). Silahla hərəkətlər yerinə yetirilərkən Döyüş Bayrağının vəziyyəti dəyişmir.

476. Hərəkətə başlamaq üçün verilən **"Addımla"** xəbərdarlıq komandasında bayraqdar Döyüş Bayrağını sol çiyninə götürür və onu dəstək boyu açılmış sol əli ilə saxlayır, sağ əlini sərbəst aşağı salır. Döyüş Bayrağının bu vəziyyətində dəstəyin aşağı ucu yerdən 50–60 sm hündürlükdə olmalıdır (şəkil 69).

477. Paradlarda təntənəli marşla keçərkən Döyüş Bayrağı 69 və ya 70-ci şəkildə göstərildiyi kimi aparılır.

478. Döyüş Bayrağı ilə hərəkət edərkən avtomatla silahlanmış assistentlər və bayraq taqımı avtomatları “sinədə”, karabinlərlə silahlananlar karabinləri "çiyində" vəziyyətində aparmalıdırlar. Bu halda avtomatlar “sinədə” vəziyyətində sol əllə lülə yatağı və lülə örtüyündən tutulur.

479. Briqadanın (hərbi hissənin) açıq sırasında bayraqdar Döyüş Bayrağı ilə və iki assistent 48-ci şəkildə göstərildiyi yerdə durur.



Şəkil 69. ***Döyüş bayrağının hərəkətdə “çiyində” vəziyyəti***



Şəkil 70. ***Döyüş bayrağının təntənəli marşla yeriş üçün vəziyyəti***

## Döyüş Bayrağının çıxarılması və aparılması qaydası

480. Bayraq taqımı Döyüş Bayrağının saxlanc yerinə üç kolonda gedir. Sıranın önündə 6 addımlıqda taqım komandiri, onun arxasında 2 addım geridə bayraqdar assistentlərlə, bayraqdarın arxasında 2 addımlıqda təbilçi hərəkət edir.

481. Bayraq taqımı Döyüş Bayrağının saxlanc yerinə gəlir və açıq iki cərgə sıraya düzülür. Bu halda sıranın ortası binadan (saxlancdan) çıxışın qarşısında olmalıdır.

482. Taqım komandiri taqımın sağ cinahında təbilçidən sağda, bayraqdar assistentlərlə taqım komandirindən 2 addım sağda bir cərgə dururlar. Döyüş Bayrağını qəbul etmək üçün qərargah rəisinin köməkçisi (müavini) bayraqdara **“Bayraqdar, arxamca, ad-**

**dımla – MARŞ”** komandasını verir. Bu komanda ilə bayraqdar və assistentlər qərargah rəisinin köməkçisinin (müavininin) arxasınca gedirlər.

483. Qərargah rəisinin köməkçisi (müavini) Döyüş Bayrağını qarovul rəisindən qəbul edir və bayraqdara verir, qarovul rəisinin iştirakı ilə Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsində göstərilən qaydaya əsasən onu yoxlayır. Sonra qərargah rəisinin köməkçisi (müavini) eyni zamanda əsgəri salam və **“Bayraqdar, arxamca, addımla – MARŞ”** komandasını verərək bayraq taqımının yanına gedir. Döyüş Bayrağı çıxışda göründükdə bayraq taqımının komandiri **“Taqım, bayrağa təzim üçün – FARAĞAT”**, taqım karabinlərlə silahlandıqda isə, **“Taqım, bayrağa təzim üçün – FARAĞAT, qarovula – AL”** komandaları verir.

484. Birinci komanda ilə taqım **“farağat”** vəziyyətini alır, taqım komandiri sağ əlin orta barmağının ucunu sağ qaşın sağ ucuna çatdırır, ikinci komanda ilə taqım, bundan əlavə, karabinləri “qarovulda” vəziyyətinə (141-ci maddə) götürür; təbilçi “Bayrağa təzim” ifa etməyə başlayır.

485. Bayraqdar assistentlərlə taqım komandirindən 2 addım sağda üzü hərəkət istiqamətinə tərəf dayanır. Qərargah rəisinin köməkçisi (müavini) bayraqdarın önündə 2 addımlıqda dayanır və sağ əlini aşağı salır; təbilçi ifanı dayandırır.

486. Bayraqdar assistentlərlə öz yerlərində duran kimi taqım komandiri əlini aşağı salır, **“Taqım, sağa – DÖN”** komandası verir, taqımda “qarovulda” vəziyyətində karabinlər olduqda, əvvəlcə **“Taqım, ayağa – AL”** və sonra **“Çiyinə – AL”** komandaları verir.

487. Bayraqla hərəkət qərargah rəisinin köməkçisinin (müavininin) **“Bayraqdar, arxamca, addımla – MARŞ”** komandası ilə başlanır. Bu komanda ilə qərargah rəisinin köməkçisi (müavini), bayraqdar və assistentlər yarımaddımlarla yeriməyə başlayırlar. Bayraq taqımı taqım komandirinin **“Taqım, üç (dörd) kolonla addımla – MARŞ”** komandası ilə 261-262-ci maddələrdə göstərildiyi kimi hərəkətdə yenidən düzülür. Yenidən düzülüş başa çat-

dıqdan sonra qərargah rəisinin köməkçisinin (müavininin) **"DÜZÜNƏ"** komandası ilə hamı tam addımla hərəkəti davam etdirir.

488. Döyüş Bayrağı ilə hərəkət sıra addımları ilə aşağıdakı qaydada yerinə yetirilir: qərargah rəisinin köməkçisi (müavini), onun arxasınca iki addımlıqda bayraqdar və assistentlər, bayraqdarın arxasınca üç addımlıqda taqım komandiri, onun arxasınca ikiaddımlığında təbilçi və onun arxasınca ikiaddımlıqda taqımın şəxsi heyəti hərəkət edir. Hərəkət vaxtı təbilçi "Səfər marşı" ifa edir, orkestr (təbilçilər) ifa etməyə başladıqda təbilçi ifanı dayandırır.

489. Bayraq taqımı Döyüş Barağı ilə briqadanın 40–50 addımlığına çatdıqda, briqada komandiri **"Briqada. Bayrağa təzim üçün, FARAĞAT, diqqət – SAĞA** (SOLA, MƏRKƏZƏ)**"**; şəxsi heyət karabinlərlə silahlandıqda, **"Briqada. Bayrağa təzim üçün, FARAĞAT. Sağdan** (soldan, öndən) **qarşılamaq üçün, qarovula – AL"** komandasını verir.

490. Birinci komanda ilə taqımdan yuxarı bölmə komandirləri sağ əlin orta barmağının ucunu sağ qaşın sağ ucuna çatdırır; bütün şəxsi heyət üzünü Döyüş Bayrağına tərəf döndərir və onun arxasınca başlarını çevirərək nəzərləri ilə müşayiət edirlər. Orkestr "**Qarşılama marşı**" ifa edir. İkinci komanda ilə, bundan başqa, karabinlər "qarovulda" vəziyyətinə götürülür (141-ci maddə). Briqadada orkestr olmadıqda, əvvəlcədən orkestrin yerində düzülmüş təbilçilər "Bayrağa təzim" ifa edirlər. Bayraq taqımı briqadanın sol cinahında dayanır, onlar karabinlərlə silahlandıqda, taqım komandirinin komandası ilə onları "qarovulda" vəziyyətinə götürür.

491. Bayraqdar assistentlərlə qərargah rəisinin köməkçisinin (müavininin) komandası ilə briqadanın önü boyu sağ cinaha doğru hərəkəti davam etdirirlər. Briqadanın sağ cinahına çıxıb qərargah rəisinin köməkçisi (müavini) bayraqdarı assistentlərlə birlikdə onlar üçün sırada müəyyən edilmiş yerə (şəkil 48) qoyur, sonra öz yerində durur.

492. Bayraqdar yerində durandan sonra briqada komandiri orkestrə (təbilçilərə) ifanı dayandırmaq işarəsi ilə eyni vaxtda

**"AZAD"** komandası, briqadada "qarovulda" vəziyyətində karabinlər olduqda isə əvvəlcə **"Briqada, ayağa – AL"** komandası verir.

493. Hərbi hissə komandirinin **"AZAD"** komandasından sonra bayraq taqımının komandiri taqımı bölüyün sırasındakı yerinə aparır.

494. Döyüş Bayrağının aparılması üçün briqada komandiri **"Bayraq taqımı – İRƏLİ"** komandası verir. Bu komanda ilə bayraq taqımı təbilçi ilə üç kolonla sıradan çıxarılır, sağ çiyinlə irəli dolanıb, sol cinahda dayanmış bölmənin önündə üzü hərbi hissənin sırasının önünə 20–25 addımlıqda dayanır.

495. Bayraq taqımı dayandıqda briqada komandiri **"Briqada. Bayrağa təzim üçün, FARAĞAT, diqqət – SAĞA"**, briqadanın şəxsi heyəti karabinlərlə silahlandıqda **"Briqada. Bayrağa təzim üçün, FARAĞAT. Sağdan qarşılamaq üçün, qarovula – AL"** komandaları verir. Bu komandalar ilə briqada 489-493-cü maddələrdə göstərildiyi kimi hərəkət edir (bayraq taqımı diqqət sola düzlənir); orkestr "Qarşılama marşı" (təbilçilər "Bayrağa təzim") ifa edir; qərargah rəisinin köməkçisi (müavini) bayraqdara **"Bayraqdar, arxamca addımla – MARŞ"** komandası verir və onu assistentlərlə briqadanın önü boyu bayraq taqımına tərəf aparır.

496. Bayraqdar bayraq taqımı ilə bərabərləşdikdə taqım komandiri **"Taqım, addımla – MARŞ"**, taqım karabinlərlə silahlandıqda isə əvvəlcə **"Taqım, ayağa – AL"** və sonra **"Çiyinə – AL"** komandaları verir. Taqım Döyüş Bayrağı ilə bayrağın saxlanma yerinə gedir.

497. Bayraq taqımı 40–50 addım uzaqlaşdıqda briqada komandiri orkestrə (təbilçilərə) ifanı dayandırmaq işarəsi ilə eyni vaxtda **"AZAD"** komandası, briqadada "qarovulda" vəziyyətində karabinlər olduqda isə əvvəlcə **"Briqada, ayağa – AL"** komandası verir.

498. Döyüş Bayrağının saxlanma yerinə çatdıqda, bayraq taqımının komandiri taqımı 483-486-cı maddələrdə göstərildiyi kimi düzür və **"Taqım, Bayrağa təzim üçün – FARAĞAT"**, taqım karabinlərlə silahlandıqda **"Taqım, Bayrağa təzim üçün – FARAĞAT, qarovula – AL"** komandası verir. Bu komanda ilə ta-

qım 487-488-ci maddələrdə göstərildiyi kimi hərəkət edir. Təbilçi "Bayrağa təzim" ifa edir. Qərargah rəisinin köməkçisi (müavini) sağ əlin orta barmağının ucunu sağ qaşın sağ ucuna çatdırır, **"Bayraqdar, arxamca addımla – MARŞ"** komandası verərək onu və assistentləri öz arxasınca aparır. Döyüş Bayrağı binaya aparıldıqda bayraq taqımının komandiri sağ əlini aşağı salır, təbilçi ifanı dayandırır; taqımda "qarovulda" vəziyyətində karabinlər olduqda, taqım komandiri **"Taqım, ayağa – AL"** və sonra **"Qayışa – AL"** komandaları verərək, taqımı təyin edilmiş yerə aparır.

# Ə L A V Ə L Ə R

**Əlavə 1**

## ________BRİQADANIN (hərbi hissənin) __________BÖLÜYÜNÜN (taborunun) SIRA VƏRƏQƏSİ

| Adı və miqdarı / Uçot növləri | Şəxsi heyət | | | | | Silah | | | | | Döyüş və digər texnika | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | | | | |
| Siyahı üzrə | | | | | | | | | | | | | | | |
| Sırada | | | | | | | | | | | | | | | |
| Yoxdur | | | | | | | | | | | | | | | |

Bölük (tabor, briqada) komandiri_________________________________

(hərbi rütbəsi və imzası)

**Qeyd:** 1. Taborun sıra vərəqəsinin arxasında birinci bölükdən başlayaraq bölük komandirlərinin hərbi rütbələri və soyadları, briqadanın sıra vərəqəsində, bundan əlavə, tabor komandirlərinin hərbi rütbələri və soyadları göstərilir.

2. Sıra vərəqəsi doldurulduqdan sonra xidməti istifadə üçün sənəd kimi saxlanılır, lazım gəldikdə müəyyən edilmiş qayda ilə məhv edilir.

**Əlavə 2**

## DÖYÜŞ BAYRAĞINI APARMAQ ÜÇÜN AŞIRMA QAYIŞIN TƏSVİRİ

Bayraqdarın Döyüş Bayrağını aparmaq üçün aşırma qayışı uzun və qısa çiyin qayışlarından və Döyüş Bayrağı ağacının aşağı ucunu qoymaq üçün dəri stəkandan ibarətdir. **80 mm** eni olan çiyin qayışlarına qırmızı (Hərbi Dəniz Qüvvələrində mavi) ipək parçadan üz çəkilir, qıraqları **12–15 mm** enində qızılı bafta ilə köbələnir.

Assistentlərin aşırma qayışları da bayraqdarınkı kimidir, onlara stəkan yerinə qızılı rəngdə qotaz tikilir.

**Əlavə 3**

## BÖLÜK ŞEYPURÇU-TƏBİLÇİLƏRİ ÜÇÜN QAYDALAR

1. Şeypurçu-təbilçi sırada sol çiyindən aşırılan və qayışından asılmış təbili alt dərisi ombasına tərəf çevrilmiş vəziyyətdə saxlayır. Çubuqlar təbil qayışındakı yuvaya nazik ucları aşağı yerləşdirilir. Şeypur sağ çiyindən aşırılan qaytandan ağzıaşağı sallanmış, sol ombada şeypurun halqası ilə bel qayışına ilişdirilmiş vəziyyətdə gəzdirilir (şəkil 71).

2. Təbili ifaya  hazırlaşmaq üçün təbilçi təbil çubuqlarını təbil qayışındakı yuvadan çıxarıb təbili ifa vəziyyətinə keçirir və çubuqların nazik uclarını onun üst dərisinə qoyur (şəkil 72). Bu halda şeypur 1-ci bənddə göstərildiyi kimi qalır.

Böyük təbilçi çubuqları yelləməklə təbil ifanın başlanma və başa çatma işarələrini verir.

3. Dönmələr vaxtı təbilçi təbilin çənbərindən tutur.

4. Hərəkət vaxtı təbilçi ifa edilməyən təbili 1-ci bənddə göstərildiyi kimi tutur.

5. Şeypuru ifaya hazırlaşmaq üçün şeypurçu onu sağ əlinə götürüb, müştüyünü ağzına yaxınlaşdırır (şəkil 73). Bu halda təbil 1-ci bənddə göstərildiyi kimi qalır.



Şəkil 71. ***Təbil və şeypurun sıra duruşunda vəziyyəti***



Şəkil 72. ***Təbilin ifa edilən vaxtında vəziyyəti***



Şəkil 73. ***Şeypurun siqnalvermə vaxtında vəziyyəti***

**Əlavə 4**

## ŞEYPUR VƏ BÖLÜK TƏBİLİNDƏ İFA EDİLƏN SİQNALLAR

### Şeypurda ifa edilən siqnallar

1. Qalx





2. Məşğələlərə başla



3. Səhər yeməyi, nahar, şam



4. Çağırış



5. Şəfəq



6. Qurtar; Yat




7. Hamı dinləsin




8. Toplanış



9. Rəislərin toplanışı



10. Atəş



11. Yüyürərək




12. Döyüş həyəcanı



13. Qarovullara marş

***Marş tempində***



14. Təntənəli şəfəq üçün cağırış



**Bölük barabanında ifası**

1. Bayrağa təzim



2. Qarovullara



3. 1-ci səfər marşı



4. 2-ci səfər marşı



5. Toplanış




6. Döyüş həyəcanı




**Əlavə 5**

## BÖLMƏ BAYRAQCIĞININ TƏYİNATI VƏ SIRADA YERİ

1. Bayraqcıq bölük, tabor və digər bölmələri tanıdır. Paradlarda (mərasimlərdə) və komandirin əmri ilə təmsil etdiyi bölmə ilə birlikdə çıxarılır.

2. Bayraqcıq daşıyıcısı bölmə komandiri tərəfindən xüsusi seçilir və bayraqcığın düzgün daşınması üçün onunla təlim keçirilir. Bayraqcıq daşıyan silahını arxasında daşıyır, bayraqcığı isə sağ əli ilə tutur.

3. Bölmə bayraqçısı ilə dönmələrdə sağ qol yavaşca dirsəkdən yuxarı müəyyən qədər qaldırılmalı və bayraqcıq sapı yerdən iki barmaq aralıda olmalıdır. Dönmə hərəkəti tamamlandıqdan sonra bayraqcığı komanda gözləmədən aşağı endirərək sıra duruşuna keçilir. Hərəkət zamanı bayraqcığın sapı yerə dik vəziyyətdə tutulur.

4. Bayraqcıq çıxarıldıqda, onun yeri açıq sırada bölmə komandirinin solunda, səfər sırasında isə komandirin arxasında iki addımlıq məsafədə olmalıdır.

5. Bayraqcıq lakla örtülmüş iki metal ucluqlu sapdan, müəyyən edilmiş rəngli və qoşun növü emblemli qumaşdan və qumaşı sapa bərkitmə qurğusundan ibarətdir (şəkil 74).




Şəkil 74. **Bayraqcığın ölçüləri**

**Əlavə 6**

## SIRANI İDARƏETMƏ SİQNALLARI

## C Ə D V Ə L İ

| Siqnal | Şərti işarələr | | |
|---|---|---|---|
| | əllə | bayraqlarla | fənərlərlə |
| Diqqət | Sağ əli yuxarı qaldırmaq və cavab alana («Diqqət» siqnalının təkrar edilməsinə qədər) qədər saxlamaq | Sağ əldə sarı bayrağı yuxarı qaldırmaq və cavab alana («Diqqət» siqnalının təkrar edilməsinə qədər) qədər saxlamaq  | Ağ işıqlı fənərlə – sıra nöqtələr  |
| Komandirlərin (rəislərin, təlimatçıların) toplanışı | Sağ əli baş üzərinə qaldırıb fırlatmaq və birdən endirmək | Sağ əldə sarı və qırmızı bayrağı baş üzərinə qaldırıb fırlatmaq və birdən endirmək  | Ağ işıqlı fənəri baş üzərində yarımdairə təsvir etməklə sağa və sola hərəkət etdirmək  |
| Maşınların yanına | İki əli yuxarı qaldırmaq və yerinə yetirilənədək saxlamaq | Sağ əldə sarı, sol əldə isə qırmızı bayrağı yuxarı qaldırmaq və yerinə yetirilənədək saxlamaq  | Ağ işıqlı fənəri çiyin səviyyəsində qarşıda sağa və sola hərəkət etdirmək  |

| Siqnal | Şərti işarələr | | |
|---|---|---|---|
| | əllə | bayraqlarla | fənərlərlə |
| Yerlərinizə | İki əli yuxarı qaldırmaq və birdən yan tərəflərdən aşağı endirmək | Sağ əldə sarı, sol əldə isə qırmızı bayrağı yuxarı qaldırmaq və birdən yan tərəflərdən aşağı endirmək  | Ağ işıqlı fənəri vertikal üzrə yuxarı aşağı hərəkət etdirmək  |
| İşə sal | Sağ əli öz önündə fırlatmaq | Sağ əldə sarı bayrağı öz önündə fırlatmaq  | Ağ işıqlı fənəri öz önündə fırlatmaq  |
| Mühərriki söndür | Əlləri endirilmiş vəziyyətdə öz önündə çarpaz yelləmək | Sağ əldə sarı, sol əldə isə qırmızı bayrağı endirilmiş vəziyyətdə öz önündə çarpaz yelləmək  | Aşağı endirilmiş qırmızı işıqlı fənərlə öz önündə yarımdairə təsvir etmək  |

| Siqnal | Şərti işarələr | | |
|---|---|---|---|
| | əllə | bayraqlarla | fənərlərlə |
| Marş (irəli, əvvəlki və ya yeni istiqamətdə hərəkəti davam etdir, yol boşdur) | Sağ əli yuxarı qaldırıb hərəkət istiqamətinə dönmək və əli hərəkət istiqamətində çiyin səviyyəsinə endirmək | Sağ əldə sarı bayrağı yuxarı qaldırıb hərəkət istiqamətinə dönmək və əli hərəkət istiqamətində çiyin səviyyəsinə endirmək  | Yaşıl işıqlı fənəri öz önündə şaquli yuxarı və aşağı hərəkət etdirmək  |
| Dur (dayan) | Sol əli yuxarı qaldırmaq və birdən ön tərəfdən aşağı endirmək, yerinə yetirilənədək təkrarlamaq | Sol əldə qırmızı bayrağı yuxarı qaldırmaq və birdən ön tərəfdən aşağı endirmək, yerinə yetirilənədək təkrarlamaq  | Qırmızı işıqlı fənəri öz önündə şaquli yuxarı və aşağı hərəkət etdirmək  |
| Ara məsafəsini artır | Sol əli yuxarı qaldırmaq, sağ əli isə yana üfüqi açaraq çiyin səviyyəsində yuxarı-aşağı hərəkət etdirmək | Sol əldə qırmızı bayrağı yuxarı qaldırmaq, sağ əldə isə sarı bayrağı yana üfüqi uzadaraq çiyin səviyyəsində yuxarı-aşağı hərəkət etdirmək  | Yaşıl işıqlı fənəri öz önündə şaquli səkkiz təsvir edərək hərəkət etdirmək  |

| Siqnal | Şərti işarələr | | |
|---|---|---|---|
| | əllə | bayraqlarla | fənərlərlə |
| Ara məsafəsini azalt | Sağ əli yuxarı qaldırmaq, sol əli isə yana üfüqi açaraq çiyin səviyyəsində yuxarı-aşağı hərəkət etdirmək | Sağ əldə sarı bayrağı yuxarı qaldırmaq sol əldə isə qırmızı bayrağı yana üfüqi uzadaraq çiyin səviyyəsində yuxarı-aşağı hərəkət etdirmək  | Qırmızı işıqlı fənəri öz önündə şaquli səkkiz təsvir edərək hərəkət etdirmək  |
| Bir xəttdə | Hər iki əli yanlara üfüqi açmaq və yerinə yetirilənədək gözləmək | Sağ əldə sarı, sol əldə isə qırmızı bayraq olmaqla hər iki əli yanlara üfüqi açmaq və yerinə yetirilənədək gözləmək  | Yaşıl işıqlı fənəri öz önündə çiyin səviyyəsində sağa və sola yelləmək  |
| Kolonnaya | Sağ əli yuxarı qaldırmaq və dik vəziyyətdə çiyin qarşısınadək endirmək (yerinə yetirilənədək təkrar etmək) | Sağ əldə sarı bayrağı yuxarı qaldırmaq və dik vəziyyətdə çiyin qarşısınadək endirmək (yerinə yetirilənədək təkrar etmək)  | Yaşıl işıqlı fənəri əvvəlcə öz önündə hərəkətsiz tutmaq sonra isə cavab alanadək «Marş» siqnalını təkrarlamaq  |

| Siqnal | Şərti işarələr | | |
|---|---|---|---|
| | əllə | bayraqlarla | fənərlərlə |
| Hamı geriyə dönsün | Sol əli yana üfüqi açmaq, sağ əli isə yuxarı qaldırmaq və baş üzərində fırlamaq | Sol əldə qırmızı bayrağı yana üfüqi açmaq, sağ əldə isə sarı bayrağı yuxarı qaldırmaq və baş üzərində fırlatmaq  | Yaşıl işıqlı fənəri öz önündə fırlatmaq  |
| Hamı sağa (sola) | Sol əli yana üfüqi açmaq, sağ əli isə yuxarı qaldırmaq, dönmə istiqamətinə dönmək və sağ əli çiyin səviyyəsində yuxarı-aşağı hərəkət etdirmək | Sağ əldə sarı bayrağı yana üfüqi açmaq, sol əldə isə qırmızı bayrağı yuxarı qaldırmaq, dönmə istiqamətinə dönmək və sağ əli çiyin səviyyəsində yuxarı-aşağı hərəkət etdirmək  | Yaşıl işıqlı fənəri şaquli yuxarıdan aşağıya və dönmə istiqamətinə hərəkət etdirmək  |
| Qəza (məcburi dayanma) | Sağ əli yana üfüqi açmaq, sol əli isə yuxarı qaldırmaq və baş üzərində sağa-sola hərəkət etdirmək | Sağ əldə sarı bayrağı yana üfüqi açmaq, sol əldə isə qırmızı bayrağı yuxarı qaldırmaq və baş üzərində sağa-sola hərəkət etdirmək. Siqnal verildikdən sonra qırmızı bayraq $45^0$ bucaq altında maşının üstünə taxılır.  | Qırmızı işıqlı fənəri öz önündə çiyin səviyyəsində sağa və sola yelləmək  |



— sarı rəngli bayraq



— qırmızı işıqlı fənər



— yaşıl işıqlı fənər



— qırmızı rəngli bayraq



— ağ işıqlı fənər

Siqnal bayrağı — 40 sm uzunluğunda ağac dəstəyə bərkidilmiş 32 x 22 sm ölçülü düzbucaqlı qumaş parçadan (sarı və ya qırmızı rəngli) ibarətdir.

**Əlavə 7**

# MAŞINLARI İDARƏETMƏ SİQNALLARI CƏDVƏLİ

| | | |
|---|---|---|
| <br>Diqqət | <br>Mühərriki işə sal | <br>Mühərriki söndür |
| <br>İrəliyə (mənə tərəf) | <br>Sağa | <br>Sola |
| <br>Asta-asta | <br>Dur | <br>Geriyə hərəkət |

Qeyd: Maşını bayırdan idarə etmək üçün komandir ona 5 m-dən artıq məsafədə durur.

**Əlavə 8**

## DÜZÜLÜŞ MEYDANININ TƏCHİZ EDİLMƏSİ (variant)
### Düzülüş meydanının sxemi

(variant)



1 – sıra meydançası; 2 – Sıra Nizamnaməsindən şəkillər lövhəsi; 3 – güzgü; 4 –cızıqdarlar üçün yer; 5 – tribuna; 6 – düzülüş xətti; 7 – bayraq üçün dirəklər; 8 – döyüş meydanında yerdəyişmə üsullarının yerinə yetirmə meydançası; 9 – maşınlarda və maşınların yanında hərəkətlərin yerinə yetirmə meydançası; 10 – siqaret çəkmək və ayaqqabı təmizləmək üçün yer.

Qeyd: 1. Hərbi hissənin düzülüş meydanı sıra hazırlığının keçirilməsi; sıra hazırlığı üzrə ən yaxşı bölmənin yarışması; səhər idmanının keçirilməsi; tabor və briqadanın ümumi axşam yoxlanışlarının keçirilməsi; dəyişmənin keçirilməsi, hərbi hissədən göndərilən komandaların, eləcə də buraxılışa gedən şəxsi heyətin yoxlanılması; məşğələ və digər tədbirlərdən əvvəl şəxsi heyətin düzülüşünün yoxlanılması üçün təyin edilmişdir.

2. Sıra hazırlığı meydançaları düzülüş meydanının sahəsi üzrə bərabər olaraq 8x16m ölçüdə hazırlanır. Düzülüş meydanında sıra hazırlığı meydançalarından başqa bölmələrin təntənəli marşla keçməsi üçün zolaqlar ayrılır.

3. Sağ cinah keçid xətti tribunadan 6-8m məsafədə çəkilir, ondan bir addımlıqda bir-birindən 10-15m məsafədə cızıqdarlar üçün yer göstərilir.

4. Düzülüş meydanında bütün xəttlər ağ boya (əhənglə qarışdırılmış) ilə çəkilir.

5. Hər sıra hazırlığı meydançası yaxşı işıqlandırılmalı və radiolaşdırılmalıdır.

**Əlavə 9**

## Sıra baxışında şəxsi heyətin sorğu-sual edilməsi üçün briqadanın düzülüşü



**Əlavə 10**

Döyüş bayrağının verilməsi üçün briqadanın düzülüşü



QEYDLƏR ÜÇÜN

## M Ü N D Ə R İ C A T

1-ci fəsil. Ümumi müddəalar ........................................... 4
Sıralar və onların idarə edilməsi ........................................... 4
Komandirlərin və əsgərlərin (matrosların) düzülüşqabağı və sırada vəzifələri ........................................... 8

2-c i f ə s i l. Silahsız və silahla sıra üsulları və hərəkətlər ........................................... 9
1. Silahsız sıra üsulları və hərəkətlər ........................................... 9
Sıra duruşu ........................................... 9
Yerində dönmələr ........................................... 13
Hərəkət ........................................... 13
Hərəkətdə dönmələr ........................................... 17
2. Silahla sıra üsulları və hərəkətlər. Silahla sıra duruşu ....... 17
Yerində silahla sıra üsullarının yerinə yetirilməsi ................ 18
Silahla dönmələr və hərəkət ........................................... 28

3-cü f ə s i l. Əsgəri salamlaşma, sıradan çıxma və rəisə yaxınlaşma ........................................... 29
Silahsız yerində və hərəkətdə əsgəri salamlaşma ................. 29
Silahla yerində və hərəkətdə əsgəri salamlaşma .................... 31
Sıradan çıxma və rəisə yaxınlaşma ........................................ 33

4- c ü f ə s i l. "Çök", "Uzan" ("Döyüşə"), "Qalx" üsulları, sıçramalar və sürünmələr ........................................... 35

5-c i f ə s i l. Bölmə bayraqcığı ilə hərəkətlər ....................... 40

6-c ı f ə s i l. Manqa, taqım, bölük, tabor və briqadanın piyada sıraları ........................................... 42
1. Manqanın sıraları ........................................... 42
Açıq sıra ........................................... 42
Səfər sırası ........................................... 48

Sıra ilə yerində və hərəkətdə əsgəri salamlaşma .................. 50
2. Taqımın sıraları ................................................................ 51
Açıq sıra ............................................................................. 51
Səfər sırası .......................................................................... 54
Sıra ilə yerində və hərəkətdə əsgəri salamlaşma .................. 58
3. Bölüyün sıraları ................................................................ 58
Açıq sıra ............................................................................. 58
Səfər sırası .......................................................................... 59
Sıra ilə yerində və hərəkətdə əsgəri salamlaşma .................. 62
4. Taborun sıraları ................................................................ 63
Açıq sıra ............................................................................. 63
Səfər sırası .......................................................................... 65
Sıra ilə yerində və hərəkətdə əsgəri salamlaşma .................. 66
5. Briqadanın sıraları ............................................................ 66

7-c i f ə s i l. Taqım, bölük, tabor və briqadanın
(hərbi hissənin) maşınlarda sıraları ........................................ 68
Ümumi müddəalar ................................................................ 68
Taqımın sıraları .................................................................... 77
Bölüyün sıraları .................................................................... 79
Taborun sıraları .................................................................... 81
Briqadanın sıraları ................................................................ 84
Əsgəri salamlaşma ................................................................ 85

8-c i f ə s i l. Bölük, tabor və briqadanın sıra baxışı ............ 86
1. Ümumi müddəalar ............................................................ 86
2. Piyada düzülüşdə sıra baxışı ............................................. 87
Bölüyün baxışı ...................................................................... 87
Taborun baxışı ...................................................................... 90
Briqadanın baxışı .................................................................. 91
3. Maşınlarda sıra baxışı ....................................................... 93

9-c u f ə s i l. Briqadanın (hərbi hissənin) Döyüş Bayrağının
sırada vəziyyəti, onun çıxarılması və aparılması .................. 95

Döyüş Bayrağının sırada vəziyyəti ........................................ 95
Döyüş Bayrağının çıxarılması və aparılması qaydası ............ 97

ƏLAVƏLƏR

Əlavə 1. Sıra vərəqəsi ........................................................... 102
Əlavə 2. Döyüş Bayrağını aparmaq üçün
aşırma qayışın təsviri ............................................................. 103
Əlavə 3. Bölük şeypurçu-təbilçiləri üçün qaydalar................ 103
Əlavə 4. Şeypur və bölük təbilində ifa edilən siqnallar ......... 104
Əlavə 5. Bölmə bayraqcığının təyinatı və sırada yeri............ 108
Əlavə 6. Sıranı idarəetmə siqnalları cədvəli ......................... 110
Əlavə 7. Maşınları idarəetmə siqnalları cədvəli .................. 116
Əlavə 8. Düzülüş meydanının təchiz edilməsi (variant).
Düzülüş meydanının sxemi.................................................. 117
Əlavə 9. Sıra baxışında şəxsi heyətin sorğu-sual edilməsi
üçün briqadanın düzülüşü ...................................................... 118
Əlavə 10. Döyüş bayrağının verilməsi üçün briqadanın
düzülüşü ............................................................................... 119

Çapa imzalanıb 14.01.2015. Ofset çap üsulu.
Formatı 60x84 $^{1}/_{16}$. Fiziki ç.v. 8. Sifariş 11.

Hərbi Nəşriyyatın mətbəəsində çap olunmuşdur.
Bakı, akademik Ş.Mehdiyev küçəsi,
«Qızıl Şərq» hərbi şəhərciyi